

Milli azadlıqdan
şirin nemət yoxdur!



# Xudafərin üzərində Azərbaycan bayrağı!

## 4 il əvvəl tarixi körpü azad edilib

Bax səh. 3

# İlham Əliyev tapşırıq verdi...



Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 oktyabr
2024-cü il,
cümə
№ 192 (6778)
Qiyməti
60 qəpik


İlham Əliyev
@azpresident

Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:45 PM · Oct 18, 2020 · Twitter for iPhone

# Zəfərə 22 gün qalırdı...

## Vətən müharibəsinin 22-ci günü

Bax səh. 2

# Müstəqillik tarixinin ən böyük büdcə zərfi...

Bax səh. 4

## “Gəlin Bakıda görüşək”...

### Pekində keçirilən “2024 Sıfır karbon missiyası” konfransında ölkəmizin COP29-a hazırlığı yüksək qiymətləndirilib

Bax səh. 4

# Əbədiyyətə qədər yaşayacaq müstəqilliyimiz!



Bax səh. 2

## 358 uşaq minalardan əziyyət çəkib...

### Ombudsman “Uşaq Hüquqları Aylığı”nın elan olunması ilə bağlı müraciət edib

Bax səh. 5

## Yaxın qonşuluq, oxşar talelər...

Bu gün Cənubi Qafqazın üç dövlətindən ikisi - Azərbaycan və Gürcüstan Amerika Birləşmiş Ştatlarının (ABŞ), Avropa İttifaqının (Aİ) hədəfinə çevrilib. Burada söhbət heç də obyektiv tənqiddən getmir. Rəsmi Bakı və rəsmi Tbilisi apardıqları siyasətdə milli maraqları önə çəkirlər, müstəqillik və suverenlik prinsiplərinə əsaslanmaqla digər mərkəzlərdən gələn diktələri rədd edirlər. Bu da kollektiv Qərbin xoşuna gəlmir.

Tarix boyunca da belə olub. Azərbaycanlılar və gürcülər dəfələrlə yadellilərin hücumlarını dəf etmək məcburiyyətində qalıblar. Həmişə də özlərinin milli varlıqlarını qorumağı bacarıblar, çətinliklərdən keçə-keçə müstəqil dövlətlərini qurmağa və onu inki...

Bax səh. 6

## Süni intellektə əsaslanan quruculuq

Forumda müxtəlif ölkələrdən süni intellekt nəzəriyyəsi, innovativ metodların hazırlanması və tibb, kibertəhlükəsizlik, idman və kənd təsərrüfatı kimi sahələrdə data elminin tətbiqi ilə məşğul olan aparıcı alimlər bir araya gəlib. Tədbirdə İsrail, Portuqaliya, Cənubi Koreya, ABŞ, Rusiya və digər ölkələrdən nümayəndələr iştirak edir. Forumda qeyd edilib ki, müasir texnologiya və innovasiyaların daim inkişaf etdiyi dünyada unikal bacarıq və zəngin təcrübəyə malik şəxslər başqalarının həyatına əhəmiyyətli təsir göstərir. Bu ekosistemin əsas hərəkətverici qüvvəsi kimi süni inte...

Bax səh. 5

# Qərbin yeni təxribat planı



## İsveçrədən səslənən “çağırışın” əks - sədası Parisdən eşidilir...

Bax səh. 6



## 5 benddən və 3 məxfi əlavədən ibarət plan...

Bax səh. 7




# İlham Əliyev tapşırıq verdi...

## Prezident Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə etdi.

Qeyd edildi ki, ərazidə icra edilən tikinti-quraşdırma işləri yekun tamamlanma mərhələsindədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır.

Prezident İlham Əliyevə COP29 konfransının ilk günlərində baş tutacaq Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkili istiqamətində atılan addımlar və icra olunan işlərlə bağlı da geniş məlumat verildi.

Dövlətimizin başçısı ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının yaşıl enerji mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış oldu.

Azərbaycan Prezidentinə COP29 Yaşıl Zonada görülən işlər barədə də geniş məruzə edildi.

Dövlətimizin başçısı Media Mərkəzinə də baxdı. Burada konfrans çərçivəsində media nümayəndələrinin səmərəli işinin təşkili üçün hərtərəfli şərait yaradılır. Bildirildi ki, konfransın işıqlandırılması üçün bu günə qədər ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

# Zəfərə 22 gün qalırdı...

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

**Vətən müharibəsinin 22-ci günü 18.10.2020**

• Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Prezident İlham Əliyev bunu özünün rəsmi tviter səhifəsində bildirib.

• Birinci vitse-prezident Mehriban Əliyeva Fu?zuli s?əhərinin və Fu?zuli rayonunun bir sıra kəndlərinin is?g?aldan azad edilməsi ilə bağlı rəsmi instaqram hesabında paylaşım edib.

• İşğaldan azad olunan Füzuli şəhərində Azərbaycan bayrağı qaldırıldı.

• Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 2 ədəd S-300 ZRK, 3 ədəd BM-21 "Qrad" YARS qurğusu, 2 ədəd "Smerç" yaylım atəşli raket sistemi, 5 tank, bir neçə haubitsa və zenit topları, o cümlədən avtomobil texnikaları və xeyli sayda canlı qüvvəsi məhv edilib. Ermənistan ordusunun Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl istiqamətində hücuma keçmək cəhdlərini Azərbaycan Ordusunun bölmələri qətiyyətlə dəf edib və düşmən itki verərək geri çəkilməyə məcbur olub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri cəbhənin Cəbrayıl istiqamətində Ermənistan silahlı qüvvələrinin "Su-25" hücum təyyarəsini vurublar.

• Müdafiə Nazirliyi Ermənistan ordusunun xüsusi təyinatlılarının mövqelərini tərk edərək qaçmasını əks etdirən videogörüntülər paylaşıb.

• Fövqəladə Hallar Nazirliyi Gəncədə düşmənin raket zərbələri nəticəsində dağılan binada axtarış-xilasetmə işlərinin yekunları barədə məlumat yayıb. Məlumata görə, dağıntılar altından xəsarət almış 53 nəfər və 13 cəsəd çıxarılıb.




• Düşmən cəbhənin Füzuli istiqamətində xeyli sayda hərbi texnikasını və silah-sursatını ataraq qaçıb - foto-video.

• Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı məhv edilib.

• Cəbhə bölgəsindən yüz kilometrlərlə aralıdakı Xızı rayonuna atılan raket Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilib.

• Bölmələrimiz Füzuli rayonu ərazisində düşmənin hərbi hissəsini ələ keçiriblər.

# Əbədiyyətə qədər yaşayacaq müstəqilliyimiz!

Dünyada xalqların sayı yüzlərlədir. Ancaq onların heç də hamısına özlərinin milli dövlətlərini qurmaq nəsib olmayıb. Azərbaycan xalqı isə nə xoşbəxtdir ki, onun müstəqil dövləti var. Hazırda ay-ulduzlu bayrağımız Birləşmiş Millətlər Təşkilatının (BMT) və digər beynəlxalq qurumların iqamətgahları önündə əzəmətlə dalğalanaraq bizlərə sonsuz qürur hissi yaşadır. Bu gün Azərbaycan hədəflərinə doğru inamla irəliləyən, milli maraqlarını qətiyyətlə qoruyan dövlətdir. Ölkəmizə və onun Liderinə bütün dünyada böyük hörmət bəslənilir.

## Bir əsrdə iki dəfə qazanılan müstəqillik

Müstəqil dövlət qurmaq ideyası Azərbaycan xalqının təsəvvüründə həmişə möhkəm yer tutub. Əcdadlarımız tarixin müxtəlif dönəmlərində ayrı-ayrı adlar altında öz dövlətlərini qurublar və sərhədlərimizi genişləndiriblər. Fəqət istilalarla, dövlətçiliyimizin itirilməsi ilə üzləşdiyimiz hallar da çox olub. Azərbaycanın əlverişli coğrafi mövqeyi, zəngin sərvətləri, gözəl təbiəti həmişə yadellilərin maraq dairəsində olub. Tariximizin son 200 ilində isə daha dəhşətli faciələrlə üzləşmişik, torpaqlarımız iki yerə bölünüb. Bununla belə, müstəqil dövlət qurmaq ideyası həmişə xalqımızın qəlbində olub.

Dövlətçilik ənənələrimizin bərpası baxımından XX yüzillik xüsusilə əlamətdar olub. Belə ki, ötən yüzillikdə Azərbaycan xalqı iki dəfə müstəqil dövlət qurmağa nail olub. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması xalqımızın zəngin dövlətçilik tarixində mühüm bir mərhələni təşkil edir. Əslində, AXC-nin bəyan edilməsi 1828-ci ildə baş tutan işğaldan sonra xalqımızın itirilmiş dövlətçiliyinin bərpası yolunda atılmış çox mühüm addım idi. Çox doğru olaraq vurğulanır ki, əgər həmin dönəmdə birinci respublika qurulmasa idi, bu gün müstəqil Azərbaycandan danışmaq da mümkün olmazdı. Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika idi. AXC dövlət quruculuğunda, idarəetmədə bir sıra yeni, mütərəqqi ənənələrin əsasını qoyub. Ancaq AXC-nin ömrü uzun olmadı-cəmi 23 ay yaşadı və 1920-ci il aprelin 28-də süqut etdi.

Sonrakı mərhələdə respublikamız təxminən 70 il keçmiş SSRİ-nin tərkibində yaşasa da, xalqımız müstəqillik ideyalarını heç vaxt unutmadı və müstəqil dövlətini qurmağa can atdı. Belə tarixi fürsət isə ötən əsrin doxsanıncı illərinin əvvəlində yarandı. Ali Sovet 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul edib. Bu, tarixi bir qərar idi. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsinə istinad olunub və Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilib.

Azərbaycan parlamentinin 15 oktyabr 2021-ci il tarixli plenar iclasında "Müstəqillik Günü haqqında" yeni qanun qəbul edilib. Elə həmin gün də Prezident İlham Əliyev tərəfindən "Müstəqillik Günü haqqında" qanun təsdiqlənib.

Qanunun təsdiqlənməsi ilə 28 May - Respublika Gününün və 18 Oktyabr - Dövlət Müstəqilliyi Gününün adı dəyişdirilib. Belə ki, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilib.

## Azərbaycanın müstəqilliyini qoruyan və onu əbədi edən tarixi şəxsiyyət - böyük siyasətçi Heydər Əliyev

Böyük siyasətçi Heydər Əliyev belə bir fikri dəfələrlə əsaslandırıb ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir. Ötən əsrin doxsanıncı illərində əvvəllərində müstəqilliyimizin bərpasında və sonrakı mərhələdə onun qorunmasında Heydər Əliyevin müstəsna rolunu xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, Heydər Əliyev uzun illər ərzində sovet Azərbaycanına rəhbərlik edib və keçmiş ittifaqda mərkəzi hakimiyyətdə yüksək vəzifələr daşıyıb. Sovet hakimiyyəti illəri sərt ideoloji buxovları ilə fərqlənirdi. Həmin dövrdə vəzifə sahiblərinin milli təəssübkeşliyi dərhal millətçilik kimi sərt damğa ilə qiymətləndirilirdi. Heydər Əliyevin böyüklüyü ondadır ki, o, ideoloji buxovlara baxmayaraq, Azərbaycan xalqında milli özünüdərk ideyasının gücləndirilməsinə xidmət edən fəaliyyətlər həyata keçirməyə nail oldu. Məhz bunun nəticəsi idi ki, ötən əsrin doxsanıncı illərinin əvvəllərində tarixi şərait yetişəndə xalqımız yumruq kimi birləşərək meydanlarda "Azadlıq", "Müstəqillik" şüarlarını ucadan səsləndirdilər. Xalq müstəqillik uğrunda mücadiləyə daxilən hazır idi. Həmin dövrdə Heydər Əliyev Naxçıvanda müstəqilliyimizə aparan yolun başlanğıcını qoydu. Muxtar Respublikanın Ali Sovetinin17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olunmuşdu. Həmin sessiyada Heydər Əliyevin cəsarəti, milli təəssübkeşliyi, xalqına bağlılığı bütün cəhətləri ilə bir daha özünü büruzə verdi. Sessiyada Onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı. Bir qədər sonra-1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi. Eyni zamanda, Heydər Əliyevin çağırışı ilə Naxçıvanın 1991-ci il martın 17-də keçmiş sovet ittifaqının saxlanması ilə bağlı keçirilən referenduma qatılmaması Azərbaycan xalqının müstəqillik ideyalarına inamını artırdı, insanlarda qarşısıalınmaz mübarizə əzmi yaratdı.

Sonradan Heydər Əliyev respublikamızın ötən əsrin 90-cı illərinin əvvəllərində XX yüzillikdə ikinci dəfə əldə etdiyi müstəqilliyini qorumaq missiyasını yerinə yetirdi. Həmin dönəmdə qeyr-qanuni yollarla hakimiyyətə gələn AXC - "Müsavat" cütlüyü yarıtmaz, səriştəsiz idarəçilik səbəbindən ölkəni uçurumun astanasına gətirib çıxartmışdı. Azərbaycan, sözün əsl mənasında, ölüm, ya qalım dilemması ilə üz-üzə idi. Vəziyyət o qədər ciddi hal almışdı ki, hətta müstəqilliyimiz də əldən gedə bilərdi. Həmin böhranlı günlərdə xalq son ümidini sınanmış oğlu Heydər Əliyevə bağlayaraq təkidlə Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb etdi. Bütövlükdə Azərbaycanın inkişaf salnaməsini yazan Heydər Əliyev bu dəfə də xalqının yanında olmağa qərar verərək 1993-cü il iyunun 9-da Bakıya gəldi və çətin vəziyyətə düşmüş ölkəyə rəhbərlik etməyə başladı. Bununla da Azərbaycanın qurtuluş tarixi başladı, müstəqilliyimiz qorundu

## Müstəqil Azərbaycanın ən böyük nailiyyəti

2003 - cü ildən etibarən müstəqil dövlətimizin sükanı Prezident İlham Əliyevin əlindədir. Dövlətimizin başçısı Heydər Əliyev ideyalarına sadiq qalmaqla Azərbaycan müstəqilliyinin möhkəmlənməsi, ümummilli ideyalarımızın reallaşması, ölkəmizin inkişafı, xalqın rifah halının yaxşılaşması naminə uğurlu siyasət həyata keçirir. Prezident İlham Əliyevin bildirdiyi kimi, ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır.




Müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı ən böyük uğur isə heç şübhəsiz ki, öz gücünə 2020-ci ildə ərazi bütövlüyünü, 2023-cü ildə isə suverenliyini tam təmin etməsidir. Artıq Şuşa, Xankəndi, Xocalı da daxil olmaqla respublikamızın bütün ərazisində Azərbaycan Bayrağı əzəmətlə dalğalanır. 2024-cü ildə baş tutan Prezident və parlament seçkiləri suveren Azərbaycanın bütün ərazilərində keçirilməsi ilə əlamətdar oldu.

*Mübariz FEYİZLİ*

# Xudafərin üzərində Azərbaycan bayrağı!

## 4 il əvvəl tarixi körpü azad edilib



Son 200 ildə ən böyük Zəfərimizi qazandığımız Vətən müharibəsinin hər günü bir tarixdir, desək, səhv etmərik. Müharibə qısa oldu, cəmi 44 gün çəkdi. Ancaq hər gündə igid əsgər və zabitlərimiz irəli gedərək yeni-yeni şəhər və kəndlərimizi işğaldan azad etdilər. Müharibənin 22-ci günündə - 18 oktyabr 2020-ci ildə müzəffər Ordumuz Xudafərin körpüsünü işğaldan azad etdi. Xudafərin körpüsünün və Xudafərin kəndinin işğaldan azad edilməsi Vətən müharibəsinin əlamətdar hadisələrindən sayılır. Bu qələbə Azərbaycan Ordusunun özünəinamını daha da artırıb, düşmənin həm hərbi, həm də psixoloji məğlubiyyətinə yol açan vacib amillərdən olub.

Xudafərin yalnız Arazın o tayı ilə bu tayını birləşdirən adi bir körpü deyil. Onun hər birimizin qəlbində rəmzi məna daşıyan xüsusi bir yeri var. Xudafərin zaman-zaman şairlərin, yazıçıların hisslərini cuşa gətirib, ona çoxsaylı şeirlər, romanlar, mahnılar həsr olunub ki, bütün bunlar da Xudafərinin Azərbaycan xalqı üçün həm də bir mənəvi dəyər, birlik rəmzi olması ilə bağlıdır. Düz 27 il biz Xudafərin nisgili ilə yaşadıq. Buna görə də tarixi abidənin işğaldan azad olunması xəbərinin sevinci hədsiz dərəcədə böyük idi.

Xudafərinin işğaldan azad olunması böyük Qələbəmizin əsas memarı olan Prezident, Ali Baş Komandan İlham Əliyevin də həyatında xüsusi bir gün olub. Bunu Onun özü səmimi şəkildə etiraf edib. Müharibə başa çatandan az sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar. Cəbrayıla gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev deyib: "Cəbrayıl rayonu. Gedirik Xudafərin körpüsünün yanına. Xudafərin körpüsü qabaqdadır.

## Dövlət başçısının həyatında xüsusi bir gün

Bu da Azərbaycan vətəndaşlarının vəhşi düşmən tərəfindən dağıdılmış evləridir.

Araz çayı, Azərbaycan-İran sərhədi. Dostluq sərhədidir".

Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən ürək dağlanırdı. Vəhşiliyin, vandalızmin bir sərhədi olmazmı? Görünür ki, özlərindən "mədəni xalq" mifləri uyduran ermənilər hər hansı bir sərhəd tanımayıblar, barbar tayfaları kimi qarşılarına çıxan hər şeyi dağıdıblar, yağmalayıblar. Dövlətimizin başçısının vurğuladığı kimi, bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın. "Bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir. Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır. Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq", - deyə Prezident İlham Əliyev sevinc hissi ilə bildirib.

Nəhayət, dövlətimizin başçısı və birinci xanım Xudafərin körpüsünə gəliblər. Bu anlar da tariximizin səhifələrinə qızıl hərflərlə yazılacaq. Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan Bayrağını qaldırıb. Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilini gəziblər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdiriblər.

# Birinci vitse-prezident Mehriban Əliyeva: Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm



**18 oktyabr 2020-ci il**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında Füzuli şəhərinin azad edilməsi ilə bağlı paylaşım edib. Paylaşımda deyilir: "Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

# Hər bir azərbaycanlını qəlbən sevindirən Xudafərin tviti

Xatirələrdən heç vaxt silinməyəcək: 44 günlük Vətən müharibəsi günlərində xoş bir ənənə yaranmışdı. Ordumuz hər dəfə yeni şəhər və kəndlərimizi işğaldan azad etdikcə Prezident İlham Əliyev sosial şəbəkə hesabındakı paylaşımlarında bu qələbələrin sevincini xalqımızla bölüşürdü. Dövlətimizin başçısının növbəti qələbə müjdəsi Xudafərin körpüsünün işğaldan azad edilməsi ilə bağlı oldu. Prezident İlham Əliyevin tvitter səhifəsində paylaşdığı "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!" tviti ölkəmizdə xüsusi coşqu ilə qarşılandı.

Qeyd edək ki, Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində havadarlarının dəstəyi ilə həyata keçirdiyi işğal nəticəsində ölkəmizin İranla olan 132 kilometr uzunluğunda dövlət sərhədi bütünlüklə düşmənin nəzarətinə keçmişdi. 18 oktyabr 2020-ci il tarixində Xudafərin körpüsü ilə yanaşı, Cəbrayıl rayonunun daha iki yaşayış məntəqəsi - Hacılı və Hacı İsaqlı kəndləri, həmçinin bir sıra yüksəkliklər də işğalçılardan azad edilib. Bununla da İranla dövlət sərhəddimizin xeyli hissəsi bərpa olunub. Hərbiçilərimiz Xudafərinin azad edilməsi planını çox məharətlə hazırlayıblar və uğurla həyata keçiriblər. Əvvəlcə erməni hərbi birləşmələri ətrafdakı yüksəkliklərdən çıxarılıb. Bundan sonra hərbiçilərimiz komandanlığın tapşırıqlarına uyğun olaraq körpüyə müxtəlif istiqamətlərdən yaxınlaşıblar. Xudafərinin azad edilməsi zamanı hərbiçilərimiz arasında itkilər olmayıb. Xat;rladaq ki, müharibənin davam etdiyi günlərdə beynəlxalq birliyin təşəbbüsü əsasında oktyabrın 18-i saat 00:00-dan etibarən Azərbaycanla Ermənistan arasında humanitar atəşkəs elan olunmuşdu. Amma erməni tərəfi yenə də bu razılaşman; pozdu və mövqelərimizi atəşə tutmaqda davam etdi. Belə olan halda isə, ordumuz onların lazımi cavabını verməli idi və verdi. Bu əməliyyatda sərhəd qoşunlarının rolunu xüsusi qeyd etmək lazımdır. Əməliyyatın itki vermədən uğurla baş tutması döyüş planının peşəkarlığından xəbər verirdi.

Xudafərin körpüləri Azərbaycan memarlığının nadir nümunələrindəndir. Baş körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Bu körpü orta əsr şəhərlərini birləşdirən karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyırdı. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu - IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərib. İkinci kərpic körpünün isə XII əsrdə tikildiyi bildirilir. Körpüləri inşa etdirən şəxsin adı barədə tarixi mənbələrdə dəqiq yazılı məlumat yoxdur. Araşdırmaçıların çoxunun fikrincə, hər iki körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan onlara "Xudafərin" adı verilib.

Araz çayı üzərində salınan iki Xudafərin körpüsü bu gün də öz əzəmətini saxlamaqdadır. Onlardan "Baş Xudafərin körpüsü" adlanan 11 aşırımlı körpünün uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir.



# Dostluq sərhədində bənzərsiz su diplomatiyası

Prezident İlham Əliyev bərpa olunan Azərbaycan-İran sərhədini dostluq sərhədi kimi səciyyələndirib. İki qonşu ölkə postmüharibə mərhələsində bu dostluq sərhədində birgə layihələr reallaşdırıblar. Cari ilin may ayında Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədində - Araz çayı üzərində inşa edilən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları istifadəyə verilib. Dövlətimizin başçısı bunu tarixi hadisə kimi səciyyələndirib.

Bəhs olunan hidroqovşaqların layihələri keçmiş Sovet İttifaqı ilə İran arasında 1977-ci ilin oktyabrında imzalanan razılaşma əsasında hazırlanıb. Hidroqovşaqların layihələri ötən əsrin doxsanıncı illərinin əvvəllərində yenidən işlənib və ona bir sıra əlavələr edilib. Bununla belə, infrastruktur obyektlərinin inşası Ermənistanın Azərbaycana qarşı apardığı və təxminən otuz il davam edən işğalçılıq siyasəti nəticəsində ləngiyib. Hidroqovşaqların 11 iyul 2016 tarixində "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu təsdiqləyib. Xatırladaq ki, həmin Saziş 2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanıb. 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində Azərbaycan qazandığı parlaq Qələbə sayəsində ərazi bütövlüyünün hərbi-siyasi yolla bərpa edilməsinə nail oldu, o cümlədən işğal illərində Ermənistanın nəzarətində qalmış İranla dövlət sərhədlərinə çıxdı. Bundan sonra Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismara qəbulu ilə əlaqədar bəzi tikintisi Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilməsi nəticəsində dayandırılsa da, sonrakı dövrlərdə tikinti işləri yalnız İran İslam Respublikası tərəfindən aparılıb.

İşğal faktına baxmayaraq, Azərbaycan da hidroqovşaqların tikintisi ilə bağlı siyasi iradədən heç vaxt geri çəkilməyib. Prezident İlham Əliyev məsələlər barədə Sərəncama əsasən, 2021-ci ildə "AzərEnerji" ASC Azərbaycan Respublikası tərəfindən sifarişçi kimi müəyyən edilib.

Hər iki layihə üzrə böyük iş həcmi yerinə yetirilib və mürəkkəb texniki məsələlər uğurla həllini tapıb. O cümlədən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları layihəsi üzrə 2016-cı ildə imzalanmış müvafiq Hökumətlərarası Sazişə əsasən yaradılmış birgə Texniki Komissiya layihələrin icrası prosesindən irəli gələn məsələlərin müzakirəsi, razılaşdırılması və həllinə davamlı töhfələr verib. Beləliklə, müharibə başa çatdıqdan sonra layihələrin Azərbaycan ərazisinə düşən seqmentlərini də tamamlamaq mümkün olub.

"Xudafərin" və "Qız Qalası" layihələri hər iki ölkənin mənafeyi naminə inşa olunub. Bundan həm İran, həm də Azərbaycan böyük iqtisadi dvidentlər qazanacaqlar. İnfrastruktur obyektlərinin texniki parametrləri kifayət qədər genişdir. Su tutumu 1,6 milyard kubmetr olan "Xudafərin" və 56,75 milyon kubmetr su tutumuna malik "Qız Qalası" hidroqovşaqları, həmçinin hər bir tərəf üçün ümumi qoyuluş gücü 140 MVt olan "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları paritet əsasda ölkələrimizin maraqlarına xidmət etməklə Azərbaycan-İran təcrübəsində transsərhəd sulardan istifadənin örnəkləri olacaq. Enerji güclərinin də bərabər bölünməsi hər iki ölkəyə əlavə fayda verəcək.

Bu layihə təkcə Azərbaycana mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması, illik 358 milyon kilovat-saat elektrik enerjisi istehsalı, 80 milyon kubmetr qaza qənaət imkanı yaradacaq. İnfrastruktur obyektlərinin istifadəyə verilməsi mərasimində bildirildiyi kimi, bu, su diplomatiyası sahəsində bənzərsiz bir layihədir. Bu layihə, əslində, Azərbaycan və İrandan əlavə, digər qonşu ölkələrlə də su sahəsində əməkdaşlığı genişləndirməyə imkan verəcək.

*MÜBARİZ*

# "Mənəvi və fiziki sağlamlıq gələcəyimizin qarantıdır"

Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq, oktyabrın 17-də Bərdə şəhərində "Mənəvi və fiziki sağlamlıq gələcəyimizin qarantıdır" mövzusunda tədbir keçirilib.




Tədbir iştirakçıları əvvəlcə Bərdə şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Bərdə Rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə çıxış edən YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov, Bərdə Rayon İcra Hakimiyyətinin (RİH) Hüquq şöbəsinin məsləhətçisi, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın katibi Natiq Səfərov narkomaniyaya qarşı mübarizədə maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.




Çıxışlarda maarifləndirmə işlərinin effektiv vasitə olduğu bildirilib, bu sahədə həyata keçirilən tədbirlərlə bağlı statistik məlumatlar təqdim edilib. Eyni zamanda, Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda məhz maarifləndirmə məsələlərinə xüsusi yer ayrıldığı diqqətə çatdırılıb.

İnteraktiv formada davam etdirilən tədbirdə gənclərin sualları cavablandırılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Müstəqillik tarixinin ən böyük büdcə zərfi...

## Dövlət büdcəsinin gəlir və xərcləri niyə artırılır?

Oktyabrın 15-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim edib. 2025-ci il dövlət büdcəsinin gəlirləri və xərcləri ilkin variantla müqayisədə artırılaraq müvafiq olaraq gəlirlər 38 milyard 316 milyon manat, xərclər isə 41 milyard 367,6 milyon manat məbləğində müəyyən olunub. Dövlət başçısının göstərişinə əsasən, Nazirlər Kabineti tərəfindən təqdim olunmuş 2025-ci il dövlət büdcəsinin ilkin layihəsi ilə müqayisədə büdcənin müdafiə və təhlükəsizlik xərcləri 1 milyard 738 milyon manat artırılıb. Yeni dəyişikliklərdən sonra büdcədə müdafiə və milli təhlükəsizlik xərclərinin məbləği 6 milyard 658,3 milyon manatdan 8 milyard 396,3 milyon manata çatdırılıb.

### Müdafiə xərclərinin artımı...

Ermənistan 44 günlük müharibədə ağır məğlubiyyətdən sonra itirdiyi hərbi potensialını artırmaq və revanşizm məqsədilə son 4 ildir ki, militarizasiya büdcəsi formalaşdırır. Son 4 ildə bu ölkənin hərbi xərcləri hər il təxminən 15-20 faiz artırılır. 2021-ci ildə müdafiə xərclərini 311,7 milyard dram (638 milyon dollar) təsdiqləyən Ermənistan 2022-ci ildə bu rəqəmi 345,5 milyard dram (719 milyon dollar), 2023-cü ildə bu rəqəmi 517,3 milyard drama (1,28 milyard dollar), 2024-cü ildə isə 550 milyard drama (1,38 milyard dolları) çatdırıb. Ermənistan genişmiqyaslı militarizasiya siyasətinə uyğun olaraq xarici yardım və qrantlar, donorların vəsaitləri hesabına davamlı silah alışları həyata keçirir və 2025-ci ildə hərbi büdcəni daha 20 faiz artıraraq 664 milyard dram və ya 1,72 milyard dollara yüksəldib.

Buna cavab olaraq Azərbaycan da adekvat tədbirlər görməyə məcburdur və büdcədə hərbi xərclərin artırılması Ermənistanın genişmiqyaslı militarizasiya siyasətinə cavab tədbirlərinin görülməsi ehtiyacı ilə əlaqədardır.

### ÜDM-in üçdə birinə bərabər maliyyə təminatı...

Beləliklə, 2025-ci ilin dövlət büdcəsinin xərcləri 1,7 milyard manat artırılmaqla 41 milyard 367,6 milyon manat təşkil edəcək ki, bu da 2024-cü ilin dürüstləşdirilmiş büdcəsinin xərcləri ilə müqayisədə 4,1 faiz çoxdur. Bu, müstəqil Azərbaycan Respublikasının tarixində ən böyük büdcə zərfi deməkdir. Faktiki olaraq yeni ilin büdcəsinin maliyyə portfeli ümumi daxili məhsulun (ÜDM) üçdə birinə bərabər olacaq. Bu, olduqca böyük maliyyə təminatı deməkdir.

Büdcədə cari xərclərin məbləği də artaraq 24,9 milyard manatdan 26,6 milyard yüksələcək ki, bu da cəmi xərclərin 65 faizi deməkdir. Əsaslı xərclərin həcmi 12,3 milyard və ya 29 faiz, dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər isə 5 faiz təşkil edəcək.

2025-ci ilin dövlət və icmal büdcə layihələri dövlət maliyyəsinin idarə olunması sahəsində bir sıra fiskal diaqnostika alətləri, həmçinin "Açıq Büdcə Sorğusu"nun metodologiyasına uyğun olaraq, ictimaiyyətə açıqlıq metodologiyası və şəffaflıq prinsiplərinin təmin olunması məqsədi ilə hazırlanıb.

Büdcənin xərclər üzrə siyasəti isə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inə və bu prioritetlərə söykənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na, həmçinin "İşğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan ortamüddətli hədəf göstəriciləri üzrə müəyyənləşib. Həmin xərc istiqamətlərinə əsasən, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası çərçivəsində 2025-ci ilin dövlət büdcəsində 6,5 milyard manat məbləğində maliyyə təminatı yaradılacaq. Qeyd edək ki, həmin strategiya sənədi çərçivəsində 2020-2024-cü illərin dövlət büdcəsindən bu məqsədlər üzrə təqribən 23,2 milyard manat məbləğində vəsait ayrılması təmin olunub.




### Azad ərazilərin yenidən qurulması əsas xərc prioritetlərindəndir

Büdcənin xərc prioriteti kimi ilk yeri müdafiə və təhlükəsizlik istiqaməti tutur. Cəmi xərclərin 20 faizi bu sahəyə yönəldiləcək.Büdcə xərclərində ikinci başlıca istiqamət isə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsidir. Həmin məqsədlərə uyğun olaraq, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, müasir infrastrukturların yaradılması, o cümlədən elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s. tədbirlərin maliyyə təminatı üçün 4 milyard manat vəsait nəzərdə tutulub.

Büdcədə yeniləşmələrdən sonra təhsil xərcləri təxminən 1 milyon manata yaxın, səhiyyə xərcləri isə 2,2 milyon manat artırılıb. Digər xərclər faktiki olaraq sentyabrda açıqlanan 2025-ci ilin büdcə layihəsinin ilkin parametrlərinə uyğundur.

Büdcə kəsiri də əvvəlki həcmdə, yəni 3 milyard 51 milyon manat olmaqla təsdiqlənib ki, bu da əvvəlki illə müqayisədə 9 faiz azdır.

### Büdcə gəlirləri 38 milyard 316 milyon manata çatacaq

Büdcənin xərclər hissəsinin artırılması sözsüz ki, gəlirlər bölməsinə də dəyişikliyi labüdləşdirir və həmin xərcə uyğun fiskal mənbəni tələb edir. Həmin mənbə isə Dövlət Neft Fondundan büdcəyə 1 milyard 700 milyon manat məbləğində əlavə transfert hesabına təmin ediləcək. Bunun nəticəsində 2025-ci il dövlət büdcəsinin gəlirləri əvvəlki 36 milyard 616 milyon manata nisbətən 1,7 milyard manat artmaqla 38 milyard 316 milyon manat məbləğində olacaq. Bu, 2024-cü ilin təsdiq olunmuş büdcəsinə nisbətən 5,3 faiz çoxdur.

Bu dəyişiklikdən sonra büdcə gəlirlərinin 18 milyard 773 milyon manatı neft-qaz sektorunun, 19 milyard 543 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşəcək.

Qeyri-neft gəlirləri büdcədə 51 faizə yaxın olmaqla yenə də üstünlük təşkil edəcək. Büdcədə fiskal yığımların əsas mənbəyi vergi orqanlarının daxilolmalarına söykənəcək, Dövlət Vergi Xidmətinin xətti ilə 15,5 milyard manat yığım proqnozlaşdırılıb. Bu, cari ilin dürüstləşdirilmiş büdcə proqnozundan 230 milyon manat və ya 1,5 faiz çoxdur.

Dövlət Neft Fondundan transfertin məbləğinin 1,7 milyard manat artması nəticəsində Fondun büdcə qarşısında fiskal payı isə 14 milyard 481 milyon manat olmaqla 37,8 faizə çatacaq. Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların həcmi isə 6,6 milyard manat olmaqla ümumi gəlirlər portfelində təxminən 16 faiz təşkil edəcək.

Ümumilikdə, fiskal struktur baxımından növbəti ildə qeyri-neft-qaz sektoru üzrə dövlət büdcəsi gəlirlərinin əsas hissəsi vergi və gömrük orqanlarının xətti ilə daxilolmalardan ibarət olacaq. Bu iki qurumun birgə büdcə yığımları 22 milyard manatdan çox təşkil edəcək.

### Büdcədə sosialyönümlü xərclər də artırılıb

2025-ci ilin büdcəsi yenə də sosialyönümlü olacaq və növbəti il və sonrakı üç il üzrə büdcə siyasətinə əsasən, sosial siyasət tədbirlərinin maliyyələşdirilməsi prioritetliyini qoruyub saxlayacaq. Gələn il sosial müdafiə və sosial təminat xərcləri 2024-cü illə müqayisədə 9,6 faiz artırılaraq 4,8 milyard manat müəyyən edilib. Bundan başqa, büdcədənkənar fond olan Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsində də artım proqnozlaşdırılır ki, nəticədə sosial təminat sektoru üçün əhəmiyyətli mənbə formalaşacaq, bu isə pensiya və müavinətlərin artrırılması üçün əhəmiyyətli zəmin yaradacaq.

Büdcə siyasətində mühüm dəyişikliklərdən biri rayon və şəhərlərin öz gəlirləri ilə xərclərini təminetmə səviyyəsinin yaxşılaşdırılması və bunun sayəsində mərkəzi büdcədən xərclərin, yəni dotasiyaların azalmasıdır. Belə ki, 2025-ci ildə 67 şəhər və rayondan 62-si öz gəlirləri ilə xərclərini tam maliyyələşdirəcək ki, nəticədə cəmi 5 rayona dövlət büdcəsindən vəsait ayrılacaq. Həmin rayonlar isə Cəbrayıl, Xocalı, Xocavənd, Kəlbəcər və Yardımlıdır. Onların gəlir və xərclərini tənzimləmək üçün büdcədən ümumilikdə, 5,2 milyon manat vəsait nəzərdə tutulub.

***ELBRUS CƏFƏRLİ***

# "Gəlin Bakıda görüşək"...

## Pekində keçirilən "2024 Sıfır karbon missiyası" konfransında ölkəmizin COP29-a hazırlığı yüksək qiymətləndirilib

Çinin paytaxtı Pekində keçirilən "İqlim Ambisiyaları və Qlobal Fəaliyyət" mövzusunda "2024 Sıfır karbon missiyası" beynəlxalq iqlim konfransında Çinin dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, elm və beyin mərkəzlərinin nümayəndələri, eləcə də diplomatlar qlobal emissiyaların azaldılmasının yollarını və bu sahədə birgə mübarizə strategiyaları müzakirə ediblər. Konfrans çərçivəsində təşkil edilən "COP29: Gəlin Bakıda, Azərbaycanda görüşək" adlı panel müzakirələrdə ölkəmizin qlobal iqlim çağırışlarından irəli gələn məqsədlərə çatmaq yolunda gördüyü işlər yüksək dəyərləndirilib. Ölkəmizin Çindəki səfiri Bünyad Hüseynovun COP29-a hazırlıq prosesi, iqlim dəyişikliyi ilə mübarizədə milli, regional və qlobal miqyasda həyata keçirilən tədbirlər, habelə "yaşıl inkişaf" strategiyasına keçid istiqamətində planlaşdırılan proqramlar barədə verdiyi məlumatlar iştirakçıların marağına səbəb olub.

### Çin Azərbaycanda Günəş və külək stansiyalarına sərmayə yatıracaq

Konfransda Çinin "yaşıl inkişaf" və qabaqcıl texnologiyası sahəsində əldə etdiyi zəngin təcrübə də nümayiş olunub ki, bu da bir çox ölkələr, o cümlədən strateji müttəfiqlərdən biri - Azərbaycan üçün də xüsusi maraq kəsb edir. Qeyd edək ki, Çin hazırda alternativ enerji texnologiyaları üzrə dümya liderlərindən biridir və dünyanın 80-dən çox ölkəsində bu innovasiyalara geniş yer verilir. Eləcə də Çin bərpa olunan mənbələrdən əldə edilən elektrik enerjisinin istehsalına görə dünyanın lider ölkəsidir və bu göstəriciyə görə ən yaxın rəqibi ABŞ-ı iki dəfə qabaqlayır. 2023-cü ildə Çinin bərpa olunan mənbələrdən elektrik enerjisi istehsalı 1000 giqavatta çatıb ki, bu da ölkənin ümumi generasiya gücü potensialının 43,5 faizi deməkdir. Dünya üzrə bərpa olunan enerji potensialının təxminən 40 faizini məhz Çin təmin edir və 2030-cu ildə bu rəqəmin 44-ə çatacağı gözlənilir.

Bu baxımdan Azərbaycanın Pekinlə "yaşıl texnologiyalar" sahəsində əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Son bir ildə iki ölkə arasında bərpa olunan enerji sahəsində əməkdaşlığa dair intensiv görüşlər keçirilib, faydalı müzakirələr aparılıb. Çinlə bərpa olunan enerji, enerji saxlancı sistemləri, şəbəkənin gücləndirilməsi, yüksək gərginlikli sabit cərəyan kabellərinin təchizatı və "yaşıl enerji" sahəsində əməkdaşlıq imkanları qiymətləndirilərək birgə layihələrin icrasına dair razılıqlar əldə edilib. 2023-cü il iyunun 1-də Energetika Nazirliyi ilə Çinin "China Gezhouba Group Overseas Investment" şirkəti arasında Azərbaycanda 2 giqavatt gücündə bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumu imzalanıb. Sənədə əsasən, Azərbaycanda sənaye miqyaslı Günəş enerjisi, quruda və dənizdə külək enerjisi istehsalı, enerji saxlama və inteqrasiya olunmuş "ağıllı enerji" sistemlərinin qurulması, "yaşıl hidrogen" istehsalına investisiya qoyuluşu nəzərdə tutulur.

### Anlaşma Memorandumları "yaşıl müttəfiqliyi" gücləndirir...

Ötən il oktyabrın 17-də Azərbaycanın Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında imzalanmış Anlaşma Memorandumu da bərpa olunan enerji sahələrində əməkdaşlığın inkişafını və enerji layihələrinə investisiyaların təşviqini nəzərdə tutur. Həmçinin bu istiqamətdə artan səmərəli əməkdaşlığı əlaqələndirmək üçün Energetika Nazirliyi ilə "China Energy Engineering Group Co.Ltd" arasında İşçi Qrupu yaradılıb. Qurumun indiyə qədər keçirilmiş 2 iclasında Çinin "Guangdong Electric Power Design İnstitute Co", "TBEA CO. Ltd", "China Datang Corporation Ltd" şirkətlərinin nümayəndələri ilə Azərbaycanın "yaşıl enerji" və innovasiyalar üzrə tanınmış şirkətlərinin nümayəndələri arasında müvafiq msləhətləşmələr aparılıb və gələcək sərmayə planları üzrə yol xəritəsi müəyyən edilib. Prioritetlərə əsasən, ölkəmizin enerji infrastrukturunun yaşıllaşdırılması məqsədilə yeni texnologiyaların tətbiqi, bərpa olunan enerji mənbələri sahəsində təcrübə mübadiləsinin təmin edilməsi nəzərdə tutulur. Eləcə də Çin şirkətləri ilə "SOCAR Green" arasında ekoloji səmərəlilik sahəsində əlaqələrin genişləndirilməsi qərara alınıb.

2024-cü ildə enerji sahəsində Çin şirkətləri ilə "yaşıl texnologiyalar" üzrə əməkdaşlıq daha da intensivləşib, 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının inşasında və Mingəçevirdə müasirl texnologiyalar əsasında yenidən qurulan elektrik stansiyasının tikintisində Çinin "Dongfang" şirkətinin iştirakı rəsmiləşib. Cari ilin may ayında "China Energy Engineering Group Co.Ltd" və "China Energy International Group Co. Ltd" şirkətlərinin nümayəndələri Azərbaycana səfər edərək bərpa olunan enerji üzrə çoxistiqamətli əməkdaşlıq əlaqələrini müzakirə edib. Energetika Nazirliyi ilə "China Gezhouba Group Overseas Investment" şirkəti arasında imzalanmış 2 QVt gücündə bərpa olunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumuna əsasən, yaxın vaxtlarda günəş elektrik stansiyalarının tikintisinə başlanılacaq.

Çin şirkətlərinin Azərbaycanda ekoloji təmiz nəqliyyat vasitələrinin istehsalında da iştirakı nəzərdə tutulur. Bir neçə ay əvvəl. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Çinin "Jiubai Import & Export" şirkəti arasında keçirilən görüşdə ölkəmizdə elektrik avtomobillərin istehsalı ilə bağlı müzakirə aparılıb. Hər iki tərəf ətraf mühitin qorunması prinsiplərinə söykənərək bu sahəyə birgə investisiyaların cəlb olunmasına razılıqlarını ifadə edib.



### Azad ərazilərdə Çinin "yaşıl texnologiyaları"...

Çin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində tətbiq olunan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının inkişaf etdirilməsində də tərəfdaşımızdır. İndiyə qədər Zəngilan, Füzuli, Laçın və digər ərazilərdə qurulan infrastrukturlarda, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında istifadə edilən "ağıllı texnologiyalar"ın, habelə enerji sistemlərinin qurulmasında zəruri olan şəbəkə sistemlərinin bir qismi Çin şirkətlərinin payına düşür.

Hazırda, Çin investorları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yeni quruculuq layihələrində öz imkanlarını artırır, Yaşıl Enerji Zonası elan edilmiş bu bölgənin enerji tələbatı modellərinin hazırlanmasında iştirak edir. Çin şirkətləri ilə bu ərazilərdə bərpa olunan enerji mənbələrinin istehsalı ilə yanaşı, elektrik nəqliyyat vasitələrindən istifadə, Günəş panellərinin qurulması, "ağıllı enerji" texnologiyalarının tətbiqi və idarə olunması sahəsində də əməkdaşlıqla bağlı danışıqlar aparılır. Bundan başqa, Çin şirkətləri 2050-ci ilə kimi sıfır emissiyalı zona elan edilmiş Naxçıvan Muxtar Respublikasının təmiz ətraf mühit proqramlarında da təmsil olunmaq niyyətlərini bəyan edib.

Çin Azərbaycanın təşəbbüskarı olduğu "yaşıl enerji" dəhlizlərini də dəstəkləyir və "Xəzər-Qara dəniz-Avropa" dəhlizinin bərpa olunan enerjinin ixracı baxımından əhəmiyyətini yüksək dəyərləndirir.

Beləliklə, Çinin dünyada böyük dəstək qazanmış "Sıfır karbon missiyası" platforması Azərbaycanın "yaşıl quruculuğu" üçün də əlverişli imkanlar açır. COP29 ərəfəsində Pekində qlobal iqlim gündəliyi ilə bağlı yeni təşəbbüslərin müzakirə olunması və "Gəlin Azərbaycanda görüşək" devizi altında panel müzakirələrin təşkili isə Azərbaycanın qlobal iqlim gündəmi ilə üst-üstə düşən çağırışlardır. Bu, həm də Çin və Azərbaycanla birlikdə, qlobal ekologiya ailəsinin COP29-dan sonrakı dövrlərdə də "yaşıl inkişaf" naminə gələcək əməkdaşlıq yollarını davam etdirməsi baxımından əlverişli fürsət hesab edilə bilər.

***E.CƏFƏRLİ***

# 358 uşaq minalardan əziyyət çəkib...

## Ombudsman “Uşaq Hüquqları Aylığı”nın elan olunması ilə bağlı müraciət edib

Uşaqlar gələcəyimizi təcəssüm etdirən ən dəyərli sərvətimizdir. Uşaq hüquqlarının müdafiəsi və təbliği uşaqların inkişafı, rifahı, onların müxtəlif zərərlərdən qorunması baxımından mühüm əhəmiyyətə malikdir.

1989-cu il noyabrın 20-də Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən qəbul edilmiş “Uşaq hüquqları haqqında” Konvensiya hər bir uşağın sahib olduğu hüquqları və iştirakçı dövlətlərin öhdəliklərini təsbit edən, uşaqların xüsusi müdafiəyə ehtiyacı olduğunu vurğulayan beynəlxalq sənəddir. Dünya dövlətləri tərəfindən insan hüquqları sahəsində ən çox ratifikasiya olunmuş bu beynəlxalq müqavilə ayrı-seçkiliyin yolverilməzliyi, uşaqların mənafelərinin üstünlüyü, yaşamaq və inkişaf etmək hüququnun təmini, uşaqların fikirlərinə hörmətlə yanaşılması kimi mühüm prinsipləri özündə ehtiva edir.

Bu fikirlər Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın ) “Uşaq Hüquqları Aylığı”nın elan olunması ilə bağlı müraciətində yer alıb.

Müraciətdə bildirilib ki, “Uşaq hüquqları haqqında” Konvensiyanı ratifikasiya edən dövlətlərdən biri kimi Azərbaycanda ötən dövr ərzində uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilmiş genişmiqyaslı islahatlar nəticəsində milli qanunvericilik müasir dövrün tələblərinə uyğun təkmilləşdirilib, dövlət proqramları, strategiyalar və digər əhəmiyyətli sənədlər qəbul edilib, institusional mexanizmlər yaradılıb, bir sıra mühüm nailiyyətlər əldə edilib.

Qeyd edilib ki, uşaq hüquqlarının müdafiəsi və təbliği ombudsmanın fəaliyyətində mühüm yer tutur və bu istiqamətdə davamlı olaraq tədbirlər həyata keçirilir.

Uşaq hüquqları sahəsində əsas beynəlxalq sənəd olan “Uşaq hüquqları haqqında” Konvensiyanın qəbul edilməsinin 35-ci ildönümü ilə əlaqədar ombudsman tərəfindən hər il olduğu kimi bu il də 20 oktyabr - 20 noyabr tarixləri ölkədə “Uşaq Hüquqları Aylığı” elan edilir.

Artıq ənənə halını almış “Uşaq Hüquqları Aylığı” uşaq hüquqlarının müdafiəsi və təbliği sahəsində fəaliyyətin gücləndirilməsi, uşaqlara diqqət və qayğının təşviqi, bu sahədə məlumatlılığın artırılması məqsədlərinə xidmət edir. Ötən illərin təcrübəsi göstərir ki, aylıq aidiyyəti dövlət və yerli özünüidarəetmə qurumları, vətəndaş cəmiyyəti institutları arasında geniş maraq doğurur və bu istiqamətdə görülən tədbirlərin miqyası getdikcə artmaqdadır.

2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsini və noyabr ayında ölkəmizin mötəbər tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini nəzərə alaraq, iqlim dəyişmələri və onun fəsadlarından təsirlənən əhali qrupu kimi uşaqların hüquqlarının müdafiəsi, onların bu istiqamətdə məlumatlandırılması, müzakirələrdə iştirakı xüsusi əhəmiyyət daşıyır.



“Təəssüf hissi ilə bildirmək istərdim ki, Ermənistanın uzun müddət işğal altında saxladığı ərazilərimizdə törətdiyi ekoloji cinayətlər, eləcə də basdırdığı minalar uşaqlar da daxil olmaqla mülki əhalinin həyat və sağlamlığına, onların təhlükəsiz geri qayıdışına ciddi əngəl törətməkdədir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir ki, onlardan 358-ni uşaqlar təşkil etmişdir. Hesab edirəm ki, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar tərəfindən bu istiqamətdə qətiyyətli addımlar atılmalı və Ermənistanın mina terroruna son qoyulmalıdır.

Cəmiyyətin həssas təbəqəsi kimi uşaqların ehtiyaclarının hərtərəfli təmini, onların daim diqqət mərkəzində saxlanılması, ahəngdar inkişafı, layiqli şəxsiyyət kimi yetişməsi hər bir dövlət, eləcə də mütərəqqi cəmiyyətlər üçün olduqca vacib amillərdəndir.

Qeyd edilənləri nəzərə alaraq, dövlət və yerli özünüidarə orqanlarını, vətəndaş cəmiyyəti institutlarını və uşaq hüquqları sahəsində fəaliyyət göstərən digər aidiyyəti qurumları “Uşaq Hüquqları Aylığı”na fəal şəkildə qoşulmağa dəvət edir, uşaq hüquqlarının müdafiəsi və təbliği istiqamətində müvafiq tədbirlər həyata keçirməklə təşəbbüsümüzə dəstək verməyə çağırıram.

Ümidvarıq ki, aylıq çərçivəsində uşaqları da fəal şəkildə cəlb etməklə keçiriləcək tədbirlər uşaq hüquqlarının müdafiəsinə diqqəti daha da artıracaq, hüquq və azadlıqların daha səmərəli müdafiəsini təmin edəcək”, - deyə ombudsman vurğulayıb.

# Malayziyadakı soydaşlarımız...

## Diaspor siyasətimizin uğurları haqqında məlumat verilib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır

Bu günlərdə Malayziyada səfərdə olan Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bir sıra mühüm görüşlər keçirib. Komitə sədri Malayziya Senatının sədri Avanq Bemee ilə görüşündə bir sıra mühüm məsələləri müzakirə edib. Komitədən bildirilib ki, Senat sədri iki ölkənin münasibətlərinin son illər yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb. O, Bakıda keçiriləcək COP29 tədbirinə Malayziya rəsmilərinin dəvət olunmasına görə minnətdarlığını bildirib.

Görüş zamanı F.Muradov ötən il Azərbaycanla Malayziya arasında diplomatik əlaqələrin qurulmasının 30 ilinin tamam olduğunu məmnunluqla xatırladıb. Azərbaycanın 20 faiz ərazisinin Ermənistanın işğalı altında olduğu 30 il müddətində BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda ölkəmizin haqlı mövqeyini daim dəstəklədiyinə görə, Malayziya hökumətinə və xalqına minnətdarlıq edib. Azərbaycan dövlətinin diaspor siyasəti, Komitənin tarixi, fəaliyyət istiqamətləri və həyata keçirdiyi layihələr barədə məlumat verən Komitə sədri iki ölkə arasında böyük əməkdaşlıq perspektivlərinin olduğunu vurğulayıb. F.Muradov Azərbaycan icmasının Malayziya cəmiyyətinə inteqrasiyası və gənc soydaşlarımızın təhsil imkanları barədə fikirlərini bölüşüb. Görüşdə Malayziya parlamentinin senatorları da iştirak ediblər.

**“Ürəkdə yazı”...**

Bundan başqa, komitə sədri Malayziyanın milli birlik nazirinin müavini xanım senator Sarasvati Kandasami ilə görüşüb. S.Kandasami məlum səfəri iki ölkə arasında münasibətlərin artan xətt üzrə inkişafının göstəricisi kimi qiymətləndirib. Fuad Muradov əsası Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan dövlətinin diaspor siyasəti, Komitənin fəaliyyəti, xaricdə yaşayan soydaşlarımızın milli kimliklərini unutmaması üçün həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Daha sonra Malayziyanın Kuala Lumpur şəhərində Cənub-Şərqi Asiya regionunda yaşayan Azərbaycan icması ilə görüş keçirilib. Görüşü açıq elan edən Azərbaycanın Malayziyadakı səfiri İrfan Davudov diaspor tarixində ilk dəfə olaraq reallaşan bu toplantı münasibətilə soydaşlarımızı təbrik edib, diaspor fəaliyyətinin səfirliklərin gücünə güc qatdığını bildirib. Tədbir çərçivəsində malay dilində çap olunmuş Azərbaycan ədiblərinin əsərlərindən ibarət “Ürəkdə yazı” adlı kitabın təqdimat mərasimi keçirilib. Malayziya Tərcümə və Kitab İnstitutunun rəhbəri Nur Amin Əhməd bildirib ki, kitab Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycanın Malayziyadakı səfirliyi ilə sıx əməkdaşlığın nəticəsi olaraq ortaya çıxıb.




**İkitərəfli münasibətlərin inkişafında kitab mübadiləsi**

Daha bir görüş Malaya Universitetinin və Putra Malaya Universitetinin professor və müəllim heyəti ilə olub, Azərbaycan haqqında təqdimatlar edilib. Qarabağ münaqişəsi, Azərbaycan torpaqlarının 30 illik işğaldan Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün ərzində azad olunması, rəsmi Bakının sülh gündəliyi professor və müəllim heyətinin diqqətini çəkib. Malaya Universitetinin professoru Roy Antoni Rocers Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına səfər etdiyini, ermənilər tərəfindən dağıdılmış məscidləri və tarixi-mədəni abidələri öz gözləri ilə gördüyünü bildirib.

Növbəti görüşlər Selanqor Xalq Kitabxanası Korporasiyasında və Malayziya Milli Kitabxanasında olub. Xalqları yaxınlaşdırmağın ən sınanmış yolunun mədəniyyət olduğu, Azərbaycan-Malayziya münasibətlərinin inkişaf etdirilməsində kitab mübadiləsinin və kitabxanalararası əməkdaşlığın da öz payı olduğu vurğulanıb. Bu səbəbdən Komitənin hər il müxtəlif dillərdə onlarla kitabın çapına dəstək olduğu qeyd edilib.

**Bakı təcrübəsi öyrənilir...**

Komitə sədri eyni zamanda Kuala Lumpur şəhərinin meri xanım Maimunah Mohd Şarif ilə görüşüb. Xalqımızın Ümummilli Lideri tərəfindən yaradılan Komitənin fəaliyyət istiqamətləri barədə məlumat verən Fuad Muradov Prezident İlham Əliyevin tövsiyələrinə uyğun olaraq soydaşlarımızın yerli cəmiyyətə inteqrasiyası və şəbəkələşməsi, xaricdəki Azərbaycan icmalarının gördüyü işlər, eyni zamanda milli kimliklərini qoruması, ölkəmizə dost xalqların nümayəndələri ilə həyata keçirilən layihələr, azərbaycanlı tələbələrin Malayziyada təhsil həyatı, beynəlxalq layihələr çərçivəsində təcrübə mübadiləsi barədə fikirlərini açıqlayıb.

Xanım mer bir neçə dəfə Bakıya səfər etdiyini, xalqımızın qonaqpərvərliyinə heyran olduğunu söyləyib. O, həmçinin Malayziya rəsmilərinin paytaxtımızda keçiriləcək COP29 tədbirinə dəvət olunmasına görə təşəkkürünü bildirib. M.Mohd Şarif Kuala Lumpur şəhərinin qədim hissəsini İçərişəhər kimi qorumaq üçün Bakının təcrübəsini öyrəndiklərini və tətbiq etmək niyyətində olduqlarını vurğulayıb.

*Yeganə BAYRAMOVA*

# Süni intellektə əsaslanan quruculuq

## Bakıda keçirilən Birinci Avrasiya Forumu süni zəka ideyalarının təşviqində faydalı platforma hesab edilir

Forumda müxtəlif ölkələrdən süni intellekt nəzəriyyəsi, innovativ metodların hazırlanması və tibb, kibertəhlükəsizlik, idman və kənd təsərrüfatı kimi sahələrdə data elminin tətbiqi ilə məşğul olan aparıcı alimlər bir araya gəlib. Tədbirdə İsrail, Portuqaliya, Cənubi Koreya, ABŞ, Rusiya və digər ölkələrdən nümayəndələr iştirak edir. Forumda qeyd edilib ki, müasir texnologiya və innovasiyaların daim inkişaf etdiyi dünyada unikal bacarıq və zəngin təcrübəyə malik şəxslər başqalarının həyatına əhəmiyyətli təsir göstərir. Bu ekosistemin əsas hərəkətverici qüvvəsi kimi süni intellekt daha ön plana çıxmaqdadır. Süni intellekt proqramları danışa və hərəkət edə bilən robot kimi hər gün gündəlik həyatın ayrılmaz texnologiyasına çevrilib.

### SOCAR, sənaye parkları, tikinti və idmanda...

Hazırda ölkəmizdə süni intellekt müxtəlif sahələrdə, o cümlədən, sənaye, energetika, kənd təsərrüfatı, SOCAR-ın müsəssisələri və sənaye parkları, futbol, güləş, cudo və digər sahələrdə daha geniş tətbiq edilir. Bundan başqa, müxtəlif biznes layihələrində, tikinti və texnologiyalar sahələrində süni intellekt və robotlar vasitəsilə müxtəlif layihələrin icrası həyata keçirilir. Bununla yanaşı, gömrük məntəqələrində xüsusi kompüterlər və kameralar vasitəsilə məhsulların skan olunması və gömrük araşdırmalarının süni intellekt əsasında aparılması istiqamətində işlər gedir. Azərbaycan dilinin korpusunun yaradılması, çağrı mərkəzlərində süni intellekt vasitəsilə səsin, yazının tanınması və insanlara cavab verilməsi, generativ əsaslı xüsusi mobil tətbiqlər vasitəsilə insanlar arasında ünsiyyətin qurulması və məlumat mübadilələrinin qurulması istiqamətində də işlər aparılır.

IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov Birinci Avrasiya Forumunda ölkəmizdə süni intellekt proqramlarının icrası bardə danışarkən bildirib ki, Azərbaycan aparıcı beynəlxalq rəqəmsal texnologiya şirkətləri ilə sıx əməkdaşlıq edir. Bu istiqamətdə onlayn təhsil platformalarından biri olan “Coursera” ilə qurulmuş əməkdaşlıq çərçivəsində minlərlə vətəndaşımız faydalanıb və süni intellekt sahəsində innovasiyaları təşviq edən 42 ölkə və 118 proqram arasında qalib olub. Həmçinin Azərbaycan dilində generativ süni intellekt və böyük dil modelləri var ki, bu da innovativ təşəbbüsləri və ideyaları inkişaf etdirməyə imkan verir. Təkcə, “Coursera” platformasındakı 20 kursun təşkili “DeepFake” texnologiyası vasitəsilə Azərbaycan dilinə tərcüməyə imkan verəcək.

### Qarabağ və Şərqi Zəngəzurda “ağıllı texnologiyalar”ın tətbiqi genişlənir

Ölkəmiz süni intellekt sahəsində Estoniya, Danimarka, İsveçrə və digər ölkələrlə də faydalı əməkdaşlıq quraraq müasir rəqəmsal innovasiyaların yeni modellərin sənayeyə, elm və təhsilə gətirilməsinə xüsusi diqqət yetirir. Bu sahədə ən unikal layihələrdən biri hesab edilən “E-Twinning” layihəsi çərçivəsində ortaq təhsil layihələrinin yaradılması süni intellekt sahəsində şagirdlərin proqramlaşdırma bacarıqlarının inkişafına və yeni texnologiyalar üzrə biliklərinin formalaşmasında müstəsna rol oynayacaq.

Süni intellektlərin geniş istifadə olunduğu texnologiyalar ağıllı sistemlərə əsaslanır. Bu baxımdan Azərbaycanda son dövrlərdə “ağıllı texnologiyalar”a geniş yer verilməsi post-industrial və yeni sənaye inqilabı quruculuğu hədəflərinə tam cavab verir. Qarabağ və Şərqi Zəngəzurda “ağıllı kənd”, “ağıllı şəhər” konsepsiyasından istifadənin artması da müasir süni inlellekt texnologiyalara keçidin sürətlənməsindən xəbər verir.

Dünyanın ən nəhəng İT şirkətləri, rəqəmsal konqlomeratları süni zəkaya böyük həcmdə sərmayələr yatırır. Təkcə “Google” şirkəti hər il bu sektora bir neçə milyard dollar xərcləyir. Bu şirkətin Nyu-York, Toronto, London, Sürix və Pekində süni intellekt üzrə elmi-tədqiqat mərkəzləri fəaliyyət göstərir ki, bu da süni intellekt ideyalarının təşviqi və istehsalın artmasında mühüm rol oynamaqdadır.




### Robot texnologiyaları ÜDM-in artmasında əsas sütunlardan birinə çevrilir

Robot texnologiyaları qlobal ÜDM-in artmasına, inkişaf etmiş ölkələrin milli məhsul istehsalında əsas əlavə dəyər yaradan sahələrdən birinə çevrilməkdədir. Yaponiya və Çin iqtisadiyyatında yaranan əlavə dəyərin təxminən 1 faizə yaxını bu sektorun payına düşür. 2030-cu ilədək süni intellekt sahəsində Çinin gəliri təxminən 60 milyard dollar təşkil edəcək.

Bu baxımdan Azərbaycan da qlobal rəqəmsal çağırışlardan geri qalmamaq üçün özünün strateji konseptini müəyyən edir. Azərbaycan hökumətinin hazırladığı yeni rəqəmsal iqtisadiyyat strategiyasında da süni intellektin inkişafına dair hədəf prioritetləri nəzərdə tutulub. Yeni dövrdə qurulacaq ekosistem startup, inkubasiya və akselerasiya mərkəzləri, vençur və kraudfandinq institutları və s. texnoloji tutumlu sahələrə söykənəcək. Bu infrastrukturu qurmaq üçün Mərkəzi Bank Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ötən il Anlaşma Memorandumu imzalayıb və sənəd çərçivəsində süni intellekt sahəsində layihələrin və ideyalara maliyyə dəstəyinin verilməsi nəzərdə tutulur. Bu platforma həm də süni intellektə əsaslanan startapların və şirkətlərin Azərbaycana cəlb edilməsi, ölkəmizin startaplarının xarici tərəfdaşlarla əlaqələrinin qurulması və əlavə dəyər yaradan milli sektorun möhkəmlənməsinə xidmət edir.

### Süni intellekt ölkəmizə 4,4 milyard dollar gəlir gətirəcək

Respublikamız 2040-cı ilə qədər iqtisadi artımın sürətləndirilməsində süni intellektin imkanlarından istifadə etməyi planlaşdırır və bu istiqamətdə beynəlxalq təşkilatlar və konsaltinq şirkətlərlə birgə layihələr icra etməyi düşünür. Qiymətləndirmələrə görə, Azərbaycan dilində generativ süni intellekt ölkə iqtisadiyyatına əlavə 4,4 milyard dollar gəlir gətirəcək. Bundan əlavə, böyük həcmli məlumatları generasiya edə biləcək rəqəmsal proqramın istifadəyə verilməsi bu potensialı daha da böyüdərək əlavə dəyərin həcmlərini də artıra bilər.

Ötən həftə Bakıda keçirilən “INMerge İnnovasiya Sammiti” çərçivəsində aparılan səmərəli müzakirələr və rəqəmsal icmanın nümayəndələri arasında məsləhətləşmələrdən sonra imzalanmış sənədlər də ölkəmizin süni intellekt quruculuğu yönündə iradəsini nümayiş etdirir. Bir neçə gün əvvəl Azərbaycanın “Epoint” startapı ilə Gürcüstanın “CityPay” startapı arasında imzalanmış memorandum isə Cənubi Qafqazda süni zəka formatının inkişafı üçün təməllərdən biri hesab edilə bilər.

### Süni intellekt əmək bazarına da müdaxilə edir

Süni intellekt əmək bazarında bir sıra meyarları nəzərə almağı tələb edir, əməyin yeni iqtisadi bölgüsünü formalaşdırır. Proqnozlara görə, süni intellektin iqtisadiyyatda dərin nüfuzu sayəsində 2030-cu ilədək dünyada sənaye sektorunun əmək qüvvəsinin təxminən 30-40 faizi robot texnologiyalarına əsaslanacaq. İnsanın fiziki əməyi tədricən azalacaq və robot innovasiyaları bir sıra aparıcı sənaye sektorlarını idarə edəcək. Bu isə əhalinin məşğulluq imkanlarına da ciddi təsirlər göstərəcək. Ehtimallara əsasən, dünyada işləyən əhalinin üçdə biri, Yaponiyada isə təqribən yarısı bu səbəbdən yeni peşələr axtarmaq məcburiyyətində qalacaq.

Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait əsas şərtdir. Bu prioritetin uğurla reallaşdırılması üçün qarşıdakı onilliklərin əmək bazarının tələblərinə cavab verən təhsil, yaradıcı və innovativ cəmiyyət quruculuğu daha da genişlənməli, bu tələbatları nəzərə alaraq ölkəmizdə də rəqəmsal intibahın ehtiyaclarına uyğun yeni “hərəkətverici qüvvələr” tapılmalıdır.

Ümumilikdə, Azərbaycanın texnologiyalar üzrə ixtisaslaşmış şirkətlərinin, dövlət qurumları və qabaqcıl təhsil müəssisələrinin dünyanın aparıcı şirkətləri ilə bir araya gəlməsi, forum və konfransların keçirilməsi ölkəmizdə rəqəmsal bacarıqların inkişafı və süni intellekt ekosisteminin möhkəmləndirilməsi, eləcə də bu sahədə xarici bazarlara çıxış imkanları baxımından mühüm əhəmiyyət kəsb edir.

*E.CƏFƏRLİ*

# Qərbin yeni təxribat planı

## “Qarabağ ermənləri” adı altında yeni separatizm toxumu əkilir

### İsveçrədən səslənən “çağırışın” əks - sədası Parisdən eşidilir...

Azərbaycan 2023-cü ilin sentyabrında reallaşdırdığı antiterror tədbirləri ilə bölgədə separatizmi məhv etdi. Qərb isə Cənubi Qafqazdakı əsas “dayaq nöqtəsi” sayılan separtçı qüvvələrin sıradan çıxması ilə hələ də “barışa” bilmir. Bunun nəticəsidir ki, bu və ya başqa adlar altında yeni separatizm toxumları səpməyə, revanşizm “xəstəliyi” yaymağa, bir sözlə qarşıdurmaların qızışması üçün zəmin yaratmağa çalışırlar. Düzdür bunu açıq “notlarla” ifa edə bilməsələr də “insan hüquqları” adı altında, “himayədarlıq” və ya “canıyananlıq” şəklində pərdələməyə çalışırlar. Məsələn, İsveçrə Federal Məclisinin Xarici Siyasət Komissiyası İsveçrə hökumətinə Azərbaycan hökuməti və Qarabağdan olan “ermənilər” arasında bir konfrans təşkil etmək “çağırışı” səsləndirib. Bu çağırışın əsl mahiyyəti ortadadır. Birmənalı şəkildə erməni lobbisinin “təşəbbüsü” ilə ərsəyə gələn bu “çağırış”ın altında olan məqsədlər:

- Bölgədə yeni “erməni kartı” əldə etmək;
- Antiterror tədbirlərindən sonra dəbə düşmüş “erməni qaçqını” ritorikasını yenidən siyasi leksikona pərçimləmək arzusu;
- Azərbaycanı guya ermənilərin “hüquqlarını pozan ölkə” kimi tanıtmaq;
- Nəhayət, Qərbin çirkin planlarının məhz həmin ermənilərin üzərindən qurulmasını təmin etmək.

### Reinteqrasiya təklifi: ermənilər getməyə qərar verdilər...

Vurğulandığı kimi, “Qarabağ erməniləri” ritorikası birmənalı şəkildə təzyiq xarakteri daşıyır - illərlə Qarabağdan didərgin salınmış, öz ata-baba yurdunda yaşamaq hüququndan məhrum edilmiş, məhrumiyyətlərə düçar olunmuş azərbaycanlıların hüquqlarını görməzdən gələn Qərbin tez-tez “erməni hüquqları” mövzusuna müraciət etməsinin altındakı maraqları bəllidir. Təsadüfi deyildi ki, hələ antiterror tədbirlərindən sonrakı günlərdə tələm-tələsik Avropa Parlamenti, AŞPA kimi qərəzli təşkilatlar anti-Azərbaycan ruhlu qətnamələr hazırlamaq üçün məhz bu tip yalanlara müraciət edirdi. Bu məsələyə yalan deməyimizə isə əsaslı arqumentlərimiz var:

- Antiterror tədbirlərindən sonra Qarabağdakı erməni əsilli şəxslərə qalmaları üçün “Reinteqrasiya proqramı” təqdim olundu;
- Paralel olaraq onlara şifahi şəkildə qalmaları üçün təkliflər səsləndirildi;
- Həmin insanların könüllü şəkildə Ermənistana köçməsinə yüksək səviyyədə şərait yaradıldı və köç əsnasında təhlükəsizlikləri təmin olundu.

Qeyd edilən reinteqrasiya proqramı Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilir. Etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verilir. Bu təminat həm də Azərbaycanın Konstitusiyasında öz əksini tapıb. Amma ermənilər bu proqramdan yararlanmaq istəmədilər və könüllü şəkildə Ermənistana köçmək istədilər - könüllü şəkildə getmək istəyəni zorla saxlamağın özü hüquq pozuntusu deyilmi?

Axı, bu torpaqlar Azərbaycan torpağıdır və bu sərhədlər daxilində yaşayan hər kəs ölkəmizin qanunlarına tabe olmalı, həmin qanunlar çərçivəsində yaşamalıdır. Başqa ölkələrdə bunun fərqli analogiyası varmı və ya mümkündürmü? Əsla yox. Belə olan təqdirdə, niyə Qərb Azərbaycana yanaşmada beynəlxalq hüququ tanımır və hətta tapdamağa çalışır...

### Qərbin planı: İsveçrədən başlasın, Parisdə davam etdirilsin...

Digər əsas bir məqam isə, Qərbin özünün yeni oyununa İsveçrədən başlamasıdır. Təbii ki, bu, Avropa İttifaqının, konkret olaraq Fransanın planıdır - İsveçrədə əsası qoyulacaq bu tədbirlər daha sonra “acı bağırsaq” kimi uzadılacaq və başqa ölkələrdə, ən əsası isə Parisdə “zühur edəcək”. Yəni Qərb bu planı silsilə şəkildə həyata keçirməyə hazırlaşır. İsveçrədə əsasının qoyulmasına hazırlaşılan bu haqsız və ədalətsiz “tendensiya” çox güman ki, sonradan fərqli ünvanlarda davam etdiriləcək.

Burada da əsas məqam Qarabağdan öz xoşu ilə Ermənistana gedən insanlara zorla “qaçqın” stuatusu sırımaqdan ibarətdir. Halbuki fakt ortadadır: Qərb bu yolla Azərbaycanın regionda formalaşdırdığı təzlükəsizlik mühitini inkar, yaradılan birgəyaşayış imkanlarını təkzib etmək, reinteqrasiya ilə bağlı irəli sürülən müsbət addımları və proqramı ikinci plana keçirmək, Azərbaycanın apardığı və humanizmə söykənən siyasi kursa qara yaxmağa çalışır. Qarabağı öz arzusu ilə tərk edən insanların “qaçqın” adlandırılması cəhdi beynəlxalq hüquqa zidd olduğu qədər mənəvi haqsızlıq nümunəsidir - bununla onlar Azərbaycanın Qarabağ regionunda yaşayan erməni sakinlərin reinteqrasiyası üçün aparılan genişmiqyaslı fəaliyyəti təkzib etməyə çalışmış olurlar.

### Qaçqın yalanı: Ermənistan pasportlu “qarabağlı”...



Eyni zamanda, Qarabağdan Ermənistana gələn insanların mütləq əksəriyyətinin məhz Ermənistan vətəndaşı olması faktoloji şəkildə öz sübutunu tapıb. Hələ 2023-cü ildə Ermənistan KİV-ləri yazırdılar ki, Qarabağdan köçdüyü iddia edilən “100 min erməni”nin yalnız 1143 nəfəri yataqxana və ictimai mənzillərdə yaşayır - yerdə qalanı öz evinə qayıdıb. Bu isə həmin “qaçqın ermənilər”in böyük əksəriyyətinin Qarabağ sakini olmadığı, işğal illərində qanunsuz məskunlaşdırıldığı və yaxud Ermənistan vətəndaşı olduğu haqda faktları bir daha təsdiqləyir. Ermənistanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Terteryan da bildirmişdi ki, Qarabağdan gedən ermənilərin böyük əksəriyyətinin Ermənistanda evi, yaşamağa şəraiti var. Həmçinin onların əksəriyyəti Ermənistan pasportu daşıyır.

### Paralellik: Qərb 35 ildir Qərbi azərbaycanlıların hüquqlarını niyə tanımır?

Cənubi Qafqaz üçün ən vacib şərt kimi çıxış edən sülh Qərb tərəfindən bu yollarla sabotaja uğradılır. Əsl sayı iddia edilənlərdən on dəfələrlə az olan Qarabağı könüllü şəkildə tərk edən ermənilərin “hüquqları” qorunduğu halda tarixi Azərbaycan torpaqlarından - hazırkı Ermənistandan, öz ata yurdundan qovulan 300 mindən artıq azərbaycanlının hüquqları niyə qorunmur? Niyə İsveçrə və ya başqa bir dövlət 35 ildən artıqdır ki, haqsızlığa uğradılımış bu insanların haqqını və hüquqlarını müdafiə etməyi yada salmır? Onlar iddia edirlər ki, Qarabağdan getmiş ermənilərin Qarabağda yaşamağa haqqı var - bəs, Qərbi Azərbaycandan qovulan soydaşlarımızın da öz torpaqlarına qayıtması, orada yaşaması hüquqları yoxdurmu? Niyə bu hüquq tanınmır?

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması bu məsələ ilə abğlı yaydığı bəyanatında da İsveçrə Federal Məclisinin Xarici Siyasət Komissiyası tərəfindən səsləndirilən təklifi qınayıb. Vurğulanıb ki, sənəddə yer almış ölkəmizin ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq hüquqa zidd yanaşma və böhtan dolu fikirlər onun müəlliflərinin əsl niyyətinin heç də sülh və dialoqu təşviq etmək olmadığını göstərir: “Xatırladaq ki, Azərbaycan hökuməti Qarabağdan olan ermənilərin reinteqrasiyası üçün planlarını ictimaiyyətə açıqlamış və ötən il onlarla dialoq aparmışdır. Lakin Qarabağdan olan ermənilər dialoqdan və Azərbaycanın reinteqrasiya təklifindən imtina etmişlər. Belə olan şəraitdə İsveçrənin bitərəfliyinə istinad edib, bədnam gündəlik və formatla “dialoq”a çağırış etmək bu ölkənin bitərəf statusundan sui-istifadədir və regiondakı vəziyyəti gərginləşdirməyə xidmət edir. Regiondan xəbəri olmayan dairələrin Azərbaycanın daxili işlərinə qarışan bu cür cəhdləri təkəbbürlü yanaşma olmaqla, tamamilə qəbuledilməzdir”.

Bəyanatda o da göstərilir ki, Qarabağ münaqişəsi artıq beynəlxalq hüquqa uyğun olaraq öz həllini tapıb. Buna baxmayaraq, son dövrlər bəzi qərb dairələrinin regionda yenidən münaqişə yaratmaq cəhdlərini müşahidə edirik. İsveçrə parlamentində irəli sürülmüş son təşəbbüs də bunun tərkib hissəsidir: “İsveçrə parlamentinə xatırladırıq ki, dialoqa çağırılmalı olan öz ərazisindən azərbaycanlıları zorla çıxarmış olan Ermənistan hökumətidir. Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətinə dialoq üçün müraciət etsə də, bu, cavabsız qalmışdır. Bundan əlavə, məhz azərbaycanlıların Ermənistana qayıdışı üçün beynəlxalq nəzarət altında olan proses təşkil edilməlidir. Qərbi Azərbaycan İcması olaraq, üzvləri tərəfindən son günlərdə Azərbaycana qarşı iki sənəd irəli sürülmüş İsveçrə parlamentini sözügedən qərəzli və zərərli addımları dayandırmağa çağırırıq. Biz, İsveçrə parlamentinin üzvlərindən Ermənistan tərəfindən qovulmuş azərbaycanlılara qarşı ayrı-seçkiliyə son qoymağı və onların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq hüququna hörmət etməyi tələb edirik”.

### Beynəlxalq mövqe: Xankəndi AZƏRBAYCANDIR!!!

Maraqlıdır ki, ermənilər və onların havadarları Azərbaycana qarşı qurduqları oyunda ayrı-ayrı komponentləri özündə birləşdirən genişmiqyaslı kampaniya qurur. Məsələn, Avropa da “Qarabağ ermənilərinin hüququ” məsələsini ortaya atır və ardından Azərbaycan dövlətinin işğaldan azad edilmiş bölgələrdə apardığı abadlıq-quruculuq işlərinə qara yaxır, onu fərqli biçimdə təqdim etməyə niyyətlənir. Onlar guya Azərbaycanın erməni əhalisinin öz evlərinə qayıtmaması üçün Xankəndidə evləri sökməsi ilə bağlı təbliğat aparırlar - olduqca ucuz və qeyri-adekvat bir hərəkət olan bu kimi “təbliğat işləri” isə beynəlxalq aləmdə ironiya ilə qarşılanır. Artıq erməni yalanları yumşaq şəkildə desək, “işləmir”.

Məsələn, bu “mövzu” ilə bağlı erməni əsilli bir jurnalistin təxribatçı sualına cavabında Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Azərbaycan tərəfi Qarabağın erməni əhalisinə öz evlərinə qayıtmaq imkanı yaradıb. M.Zaxarova qeyd edib ki, söhbət Azərbaycanın ərazisindən gedir və orada bu ölkənin qanunları qüvvədədir. “Biz öz evlərini tərk etmiş əhaliyə ora qayıtmaq üçün imkanın yaradılmasına yönəldilən konstruktiv addımları dəfələrlə şərh etmişik, vurğulamışıq. Biz azərbaycanlı həmkarlarımızla ikitərəfli təmaslar zamanı bu məsələni qaldırırıq və müvafiq izahatlar və izahlar alırıq... Mən bir daha vurğulamaq istəyirəm ki, qayıtmaq imkanı yaradılıb”.

Bəli, ermənilər özləri özlərini ifşa edirlər. Azərbaycanın de-fakto və de-yure ərazisi ilə bağlı aparılan yalan təbliğatın ən gözəl cavabı məhz budur - Xankəndi AZƏRBAYCANDIR!!!

***Pərviz SADAYOĞLU***

# Yaxın qonşuluq, oxşar talelər...

Bu gün Cənubi Qafqazın üç dövlətindən ikisi - Azərbaycan və Gürcüstan Amerika Birləşmiş Ştatlarının (ABŞ), Avropa İttifaqının (Aİ) hədəfinə çevrilib. Burada söhbət heç də obyektiv tənqiddən getmir. Rəsmi Bakı və rəsmi Tbilisi apardıqları siyasətdə milli maraqları önə çəkirlər, müstəqillik və suverenlik prinsiplərinə əsaslanmaqla digər mərkəzlərdən gələn diktələri rədd edirlər. Bu da kollektiv Qərbin xoşuna gəlmir.

Tarix boyunca da belə olub. Azərbaycanlılar və gürcülər dəfələrlə yadellilərin hücumlarını dəf etmək məcburiyyətində qalıblar. Həmişə də özlərinin milli varlıqlarını qorumağı bacarıblar, çətinliklərdən keçə-keçə müstəqil dövlətlərini qurmağa və onu inkişaf etdirməyə nail olublar.  Belə çıxır ki, iki dost ölkə, iki xalq yaxın qonşular olmaqla yanaşı, onları həm də oxşar talelər birləşdirir.

### Həmişə bir yerdə olan iki dost ölkə

Azərbaycan və Gürcüstan bu gün də bir yerdədirlər və Qərbin əsassız təhdidlərinə, təzyiqlərinə baxmayaraq öz gələcəklərini qururlar. 1996-cı il martın 8-də imzalanan “Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə” ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoyan sənəddir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. 2022-ci ildə münasibətlərimizin 30-cu ildönümü qeyd olunub. İndiyədək ölkələrimiz arasında 125-dən çox sənəd imzalanıb. 1995-ci ildə Gürcüstanın Azərbaycanda, bir il sonra isə Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyətə başlayıb. Həmçinin 2009-cu ildə Azərbaycanın Gürcüstanın Batumi şəhərində baş konsulluğu, 2013-cü ildən etibarən isə Gəncə şəhərində Gürcüstanın baş konsulluğu açılıb.



Azərbaycan ilə Gürcüstan arasında beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək təcrübəsi var. BMT Baş Assambleyasının 2020-ci (3 sentyabr), 2021-ci (17 iyun) və 2022-ci ildə (8 iyun) keçirilmiş sessiyalarında “Abxaziya (Gürcüstan) və Cənubi Osetiyadan (Gürcüstan) məcburi köçkün və qaçqınların vəziyyəti barədə” qətnamələrə dair səsvermə zamanı Azərbaycan sözügedən sənədin lehinə səs verib. Eyni zamanda, Gürcüstan davamlı olaraq Azərbaycanın ərazi bötövlüyünə dəstək nümayiş etdirib. Döst ölkə Vətən müharibəsi günlərində öz ərazisindən işğalçı Ermənistana silah daşınmasına qadağa qoydu.

İki ölkə arasında münasibətlərin yüksək səviyyəsindən söhbət açarkən, intensiv hal alan qarşılıqlı səfərlərin önəminə xüsusi diqqət yetirmək lazımdır. Qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyevin indiyədək Gürcüstana 10-dan çox səfəri reallaşıb. Gürcüstanın yüksək səviyyəli rəsmiləri də tez-tez Azərbaycana səfərə gəlirlər. İrakli Kobaxidze Baş nazir seçildikdən dərhal sonra cari ilin mart ayında respublikamızda səfərdə olub. Prezident İlham Əliyev səfər çərçivəsində mətbuata verdiyi Bəyanatında ikitərəfli dostluq əlaqələrinin böyük əhəmiyyət daşıdığına diqqət çəkərək vurğulayıb: “Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Biz təkbətək görüş əsnasında bir çox məsələləri geniş müzakirə etdik. Gürcüstan və Azərbaycan iki müstəqil dövlət kimi daim bir-birinin yanındadır, bizim dostluğumuz, qardaşlığımız dərin tarixi köklərə əsaslanır. Əsrlər boyu bizim xalqlarımız dostluq və mehriban qonşuluq şəraitində yaşamışlar, dövlətlərarası münasibətlər bu möhkəm zəmin üzərində qurulmuşdur”.

### Gürcüstanın aborigen sakinləri - azərbaycanlılar

Gürcüstanda 2014-cü ildə aparılan son siyahıyaalmaya əsasən, bu ölkədə tarixən yığcam halda yaşayan azərbaycanlı əhalinin sayı 233 min nəfər təşkil edib. Soydaşlarımız əsasən Kvemo-Kartli regionunun Marneuli, Qardabani, Bolnisi, Dmanisi, Tsalka və Tetristkaro rayonlarında, Rustavi şəhərində, Kaxeti, Şida-Kartli, Mtsxeta-Mitianeti bölgələrində və Acarıstan Muxtar Respublikasında, eləcə də paytaxt Tbilisi şəhərində məskunlaşıblar. Gürcüstanda yaşayan azərbaycanlılar bu ölkənin aborigen sakinləridirlər.

Azərbaycan dövləti və Cənubi Qafqaz coğrfiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu Gürcüstanda yaşayan soydaşlarımızın sosial ehtiyaclarının qarşılanmasını, onların Gürcüstan cəmiyyətinə inteqrasiyasını hədəfləyən çoxsaylı layihələr reallaşdırırlar.  Hazırda paytaxt Tbilisidə ümummilli lider Heydər Əliyevin adını daşıyan böyük küçə, park və abidə var. Ulu Öndər Gürcüstanla əlaqələrə böyük önəm verirdi. Heydər Əliyev zamanında iki ölkənin xalqları arasında əlaqələri belə xarakterizə etmişdi: “Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək”.

Gürcüstanda, həmçinin azərbaycanlılara aid Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrı, “ERA Teatrı” və yeni yaradılmış “Beez” Uşaq teatrı fəaliyyət göstərir.

Tbilisidə M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi də mövcuddur. Bu muzey M.F.Axundzadənin, C.Məmmədquluzadənin və N.Nərimanovun ev-muzeylərini özündə birləşdirir.

### Birgə reallaşdırılan layihələr

İki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsinə uyğun olaraq iqtisadi sahədə əməkdaşlıq da davamlı şəkildə genişlənir. Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsi artmaqdadır. Respublikamız dost ölkənin beşinci ticarət tərəfdaşıdır. İki ölkə arasında ticarət dövriyyəsi ötən il 15 faiz artıb və hazırda 900 milyon dollara yaxındır . İndiyədək Azərbaycan investorları Gürcüstan iqtisadiyyatına 3,4 milyard dollar sərmayə qoyublar. Təbii ki, bunun əsas səbəbi gözəl investisiya iqliminin mövcudluğudur. Azərbaycanda isə  815 Gürcüstan investisiyalı kommersiya qurumu qeydiyyatdadır, onlardan 533-nün fəaliyyəti aktivdir. Ümumilikdə, Gürcüstandan Azərbaycana 279 milyon ABŞ dolları məbləğində investisiya qoyulub.

Azərbaycanla Gürcüstanın iqtisadi sahədə əməkdaşlığı yalnız ikitərəfli məzmun daşımır. İndiyədək iki dost ölkə qardaş Türkiyə ilə birlikdə Bakı-Tbilisi-Supsa, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi kimi transmilli nəqliyyat və enerji layihələrini reallaşdırmağa nail olublar. Azərbaycan və Gürcüstan energetika sahəsində ənənəvi istiqamətlərdən başqa, həm də “Yaşıl enerji dəhlizi” layihəsi üzrə əməkdaşlığa başlayıblar. Söhbət Qara dənizin dibi ilə Gürcüstan sahillərindən Avropaya çəkiləcək sualtı kabel xəttindən gedir. Yaxın vaxtlarda layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Bundan sonra Avropa ölkələri ilə tərəfdaşlıq şəraitində konkret işlərə start veriləcək. Böyük sərmayə qoyuluşu nəzərdə tutulur. Bu marşrutla Azərbaycanda bərpa olunan mənbələrdən alınan enerji Avropaya çatdırılacaq.

Azərbaycan həmçinin Qara dənizin Gürcüstan sahillərində fəaliyyətini daha da genişləndirmək niyyətindədir. “Bu gün hər iki ölkə birgə səylərlə nəinki öz iqtisadi inkişafını təmin edir, eyni zamanda, bölgə üçün və böyük mənada Avrasiya üçün də önəmli ölkələrə çevrilib. Birgə həyata keçirdiyimiz infrastruktur layihələri - nəqliyyat, enerji layihələri bir çox ölkələr üçün böyük əhəmiyyət kəsb edir və bundan sonra da bu istiqamətdə əlavə addımlar atılacaq. Xüsusilə nəqliyyat sahəsində yaradılan və yaradılacaq yeni infrastruktur bir çox ölkələr üçün əvəzolunmaz imkanlar açacaq”, - deyə Prezident İlham Əliyev yuxarıda bəhs etdiyimiz Bəyanatında vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# 5 bənddən və 3 məxfi əlavədən ibarət plan...

## Zelenski parlamentdə qələbə planını açıqladıqdan sonra ABŞ Kiyevə yeni hərbi yardım ayırıb

**Ukrayna Prezidenti Volodimir Zelenski uzun müddətdir bəhs etdiyi qələbə planını parlamentə təqdim edib. O, Ukrayna Ali Radasında çıxışı zamanı deyib ki, qələbə planı beş bənddən və üç məxfi əlavədən ibarətdir. Dövlət başçısının sözlərinə görə, birinci bənd geosiyasi, ikinci və üçüncü bəndlər isə hərbi xarakter daşıyır. Dördüncü bənd iqtisadiyyata, beşinci bənd təhlükəsizlik məsələlərinə aiddir. Zelenski bildirib ki, hər bir bənd müəyyən bir dövr üçün nəzərdə tutulub. Ukrayna Prezidenti diqqətə çatdırıb ki, ilk dörd bənd müharibə dövrünü əhatə edir və onun başa çatdırılmasını nəzərdə tutur. Beşinci bənd isə postmüharibə dövründə təhlükəsizliyin təmin edilməsi ilə bağlıdır. O, qələbə planına üç əlavənin detallarını açıqlamayıb.**

### Zelenskinin NATO-ya üzvlük ümidi...

Zelenskinin sözlərinə görə, Rusiya onilliklər ərzində Avropadakı geosiyasi qeyri-müəyyənlikdən, yəni Ukraynanın NATO üzvü olmamasından istifadə edib: "İndi Ukraynanın NATO-ya dəvət edilməsi faktı sülh üçün həqiqətən də fundamental amil ola bilər. Biz başa düşürük ki, NATO-ya üzvlük bu günün deyil, gələcəyin işidir". Onun fikrincə, dəvət qətiyyətdən başqa heç nə tələb etməyən güclü qərardır. "Buna görə də bu, qələbə planının başlanğıc nöqtəsidir və qətiyyətliliyin təsdiqidir. İndi qeyd-şərtsiz dəvət vacibdir. Bu, əminlikdir - tərəfdaşların Ukraynanın təhlükəsizlik arxitekturasındakı yerini əslində necə gördüyünün təzahürüdür. Mən hamınızdan xahiş edirəm, tərəfdaşların Ukraynanı Avropa təhlükəsizlik arxitekturasında digərləri ilə bərabər tanımaq əzmi üçün çalışın", - deyə Zelenski vurğulayıb.

Yeri gəlmişkən, NATO-nun yeni Baş katibi Mark Rutte də oktyabrın 1-də bu vəzifənin təhvil alınması mərasimində çıxışı zamanı Ukraynaya açıq dəstəyini ifadə edib. O, Ukrayna müharibəsini və alyansın müdafiə xərclərinin artırılmasını prioritet hesab etdiyini də vurğulayıb: "Prioritetlərimiz dəyişməz olaraq qalır. Biz Ukraynanın müstəqil demokratik dövlət kimi qalmasını təmin etməliyik. Müdafiə və çəkindirmə imkanlarımız baxımından xərcləri artırmalı, kollektiv müdafiə gücümüzü genişləndirməliyik". Onun sözlərinə görə, NATO-nun hər bir ölkəsi Ukraynanın Rusiyanın dərinliklərinə zərbələr endirməsinə icazə verilməsi barədə qərarı müstəqil şəkildə qəbul etməlidir.

### Rutte Kiyevə hərbi dəstəyin gücləndirilməsinin tərəfdarıdır

Eyni zamanda, M.Rutte Ukraynanın özünümüdafiə hüququnu dəstəklədiyini vurğulayıb. Baş katib hesab edir ki, təhlükəsizliyin təmin olunması üçün dünyanın müxtəlif bölgələrində NATO tərəfdaşlıqları inkişaf etdirilməlidir: "Ukraynanın layiqli yeri NATO-dadır. Mənim ikinci prioritetim Ukraynaya dəstəyimizi gücləndirməkdir və onu NATO-ya daha da yaxınlaşdırmaqdır. Çünki güclü, müstəqil Ukrayna olmadan Avropada davamlı təhlükəsizlik ola bilməz. Üzərimizə düşəni etməliyik". NATO-nun yeni Baş katibinin Ukaynaya dəstəyin artırılması ilə bağlı mövqeyi V.Zelenskini cəsarətləndirən amillərdən biridir. Buna görə də, o, qələbə planında ölkəsinin alyansa üzvlüyünü xüsusi qeyd edir.



### Planı Ali Rada həyata keçirəcək?

Zelenski Ali Radaya qələbə planını təqdim etdikdən sonra parlamentarilərlə görüş keçirib. Ali Rada planın bəndlərini həyata keçirmək üçün lazım olan sənədlər paketini hazırlayacaq. Parlament, həmçinin diplomatik qarşılıqlı fəaliyyət planı hazırlayacaq. Prioritet ABŞ Konqresi, Avropa Parlamenti və G7 ölkələrinin parlamentləri olacaq. Bu barədə isə Ukrayna Ali Radasının sədri Ruslan Stefançuk məlumat verib. "Prezident parlament rəhbərliyi ilə bütün fraksiya və qrupların sədrləri ilə görüşdü və biz birlik kontekstində irəli sürülən təklifləri iki saata yaxın ətraflı müzakirə etdik. Fraksiya və qrupların nümayəndələrinin hər birinin Ukrayna prezidentinə sual vermək imkanı olub", - deyə Stefançuk görüşün üç fundamental nəticəsi olduğunu bildirib. Onlardan birincisi - qələbə planı Ali Radaya təqdim edilib, ikincisi - parlament bu planı həyata keçirməyə başlayacaq, üçüncüsü isə Ali Rada Ukrayna parlamentinin və siyasi qüvvələrin bu plana necə inteqrasiya olunacağına dair ümumi proqram hazırlayacaq. "Yəni bu, parlamentin bu gün təklif etdiyi inteqrasiyalı yanaşmadır. Ukrayna Prezidenti ilə görüşdə bütün fraksiya və qrup rəhbərləri birlikdə, yekdilliklə bu mövqelərin hamısını dəstəklədilər", - deyə spiker qeyd edib.

### Vaşinqton müharibənin davam etməsini istəyir

Zelenski parlamentdə qələbə planını təqdim etdikdən sonra - oktyabrın 16-da ABŞ Prezidenti Co Bayden Ukraynaya növbəti hərbi yardım paketini açıqlayıb. Buraya ümumilikdə, 425 milyon dollar dəyərində silah daxildir. Bu barədə Ağ Evin mətbuat xidmətinin "Telegram" səhifəsi məlumat verib. Məlumata görə, ABŞ lideri Prezident Zelenski ilə danışıqlardan sonra Ukrayna Silahlı Qüvvələri üçün yeni paket açıqlayıb. Paketə hava hücumundan müdafiə sistemləri, hərbi sursat və zirehli maşınlar daxildir.

Ağ Ev, həmçinin əmin edib ki, Ukrayna yaxın aylarda ABŞ-dan əlavə silahlar, o cümlədən yüzlərlə hava hücumundan müdafiə sistemi, onlarla taktiki hava hücumundan müdafiə sistemlərii, əlavə artilleriya sistemi, əhəmiyyətli miqdarda döyüş sursatları, yüzlərlə zirehli personal daşıyıcısı və piyadaların döyüş maşınları, eləcə də minlərlə zirehli texnika alacaq.

Xatırladaq ki, Zelenski ötən ay BMT Baş Assambleyasının 79-cu sessiyasında iştirak etmək üçün ABŞ-a səfəri çərçivəsində Co Baydenlə görüşmüş və ona qələbə planını təqdim etmişdi. Ukrayna dövlətinin başçısı Ağ Evin qərarından sonra "Teleqram" kanalında yazıb ki, hava hücumundan müdafiə sistemləri və uzaqmənzilli silahları ehtiva edən yeni paketə görə ABŞ Prezidentinə, Konqresin partiyalarına və Amerika xalqına minnətdardır.

Əslində isə rəsmi Vaşinqton bu qərarı ilə Ukraynada müharibənin davam etməsinə maraqlı olduğunu göstərir. Çünki Rusiya-Ukrayna müharibəsinin davam etməsini ABŞ bu regionda öz planlarını gerçəkləşdirmək üçün fürsət hesab edir.

*N.BAYRAMLI*

# Trampa qarşı sui-qəsd cəhdində erməni izi

## Dünyanın müxtəlif ölkələrində erməni terroruna rast gəlinir

ABŞ-da prezident seçkiləri kampaniyasının mühüm mərhələsində - oktyabrın 12-də respublikaçıların namizədi Donald Trampa qarşı növbəti - üçüncü sui-qəsd cəhdi olmuşdu. Belə ki, həmin gün Kaliforniyada keçirilən mitinq zamanı bir şəxs silahla prezidentliyə namizədə yaxınlaşmağa cəhd edib. Las-Veqas sakini Vem Miller mitinqdə silah və saxta jurnalist vəsiqəsi ilə yaxalanıb və dərhal həbs edilmişdi. ABŞ mediası yazırdı ki, Vem Miller 49 yaşındadır, mitinqdən təxminən dörddəbir mil məsafədə yerləşən bir yoxlama məntəqəsində saxta VIP keçid və saxta jurnalist kartları ilə tutulub. O, saxlanılarkən yanında ov tüfəngi və güllə ilə dolu tapança aşkarlanmışdı. Polis araşdırması zamanı hadisənin Trampa qarşı sui-qəsd cəhdi olduğu şübhəsi irəli sürülüb. Lakin bu qəsd planı, erkən ifşa olunduğu üçün mitinq iştirakçılarına və ya Trampa birbaşa təsiri olmayıb.

### Vem Miller erməni olduğunu etiraf edib

Lakin sonradan Miller 5000 dollar girov qarşılığında sərbəst buraxılıb. Məlum olub ki, Donald Trampa 3-cü sui-qəsd cəhdində ittiham edilən bu şəxs milliyyətcə ermənidir. 49 yaşlı Vem Miller bu barədə müsahibəsində açıqlayıb. O, həmçinin istintaqa silahı "özünümüdafiə" məqsədilə gəzdirdiyini söyləyib. Vem Miller "Fox News Digital" telekanalına deyib ki, üstündə olan silah barədə guya əvvəldən səlahiyyətlilərə xəbər verib. "Mən həmişə yük maşınımın arxasında silahla səyahət edirəm", - deyən Miller qeyd edib ki, o, milliyətcə ermənidir və bunu sübut edən sənədləri var. Onun sözlərinə görə, üstündə həyatına olan təhdidlərlə bağlı silah gəzdirir. Amma hansı təhdidlərlə üzləşdiyini açıqlamayıb.



Əslində, erməni Millerin Trampa qarşı sui-qəsd cəhdi anlaşılandır. O mənada ki, tarix boyu erməniərdən terrorçu kimi istifadə edilib. Hətta ermənilərin terror təşkilatları da yaradılıb. Uzun illərdir Qərbdə və bir sıra Şərq ölkələrində kök salmış erməni terror təşkilatları zaman-zaman fəallaşıb, çoxsaylı insan tələfatına səbəb olan aksiyalar həyata keçirib və öz missiyasını yerinə yetirdikdən sonra qeyri-leqal şəraitdə fəaliyyətlərini davam etdiriblər.

### "Hnçaq"dan ASALA-ya qədər...

Ötən əsrin 70-80-ci illərində bütün dünyada türk diplomatlarına, sonrakı dövrdə isə Azərbaycan vətəndaşlarına qarşı törədilmiş çoxsaylı terror aktları bu təşkilatların bədxah əməlinin nəticəsidir. Xalqımıza qarşı həyata keçirilən erməni terror aktlarının tarixi isə XVIII əsrdən başlayır. İlk erməni terror təşkilatları "Hnçaq", "Armenakam", "Daşnaksütyun"dur. Və bu təşkilatların həyata keçirdiyi terrorun əsas hədəfi azərbaycanlılar olublar. Ümumiyyətlə, erməni terrorunun başlıca məqsədini xəyali "Böyük Ermənistan" dövlətinin yaradılmasına mane olanlara qarşı mübarizə təşkil edir. Bu tendensiya isə müasir dövrümüzə qədər "inkişaf" edib.

"Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" - ASALA isə 1975-ci ildə yaradılıb. Bu təşkilat əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirib. Təşkilatın "Əbu Nidal", "Qara sentyabr" kimi terror qrupları ilə əməkdaşlıq etməsində rol oynayan əsas fiqurlardan biri ASALA-nın lideri Akop Akopyan olub. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A.Akopyan 01.08.1980-ci ildə "Nyu-York Tayms" qəzetinə verdiyi müsahibədə bildirmişdi: "Bizim düşmənimiz türk rejimi, NATO və bizimlə əməkdaşlıq etməyən ermənilərdir". ASALA-nın 1983-cü il iyul ayının 15-də Parisin Orli beynəlxalq hava limanında Türkiyə Hava Yolları şirkətinə məxsus bölmədə törətdiyi terror aktı zamanı isə 8 nəfər həlak olub, 54 nəfər yaralanıb.

Azərbaycan da erməni terrorundan ən çox əziyyət çəkən ölkələr sırasındadır. 30 illik Ermənistan-Azərbaycan münaqişəsi dövründə ermənilər dinc əhaliyə qarşı xeyli terror törədiblər. 1992-ci il yanvarın 8-də isə Türkmənistandan "Krasnovodsk-Bakı" marşrutu ilə hərəkət edən dəniz bərəsində terror aktı törətməklə 25 nəfəri qətlə yetiriblər. Bundan əlavə, Ermənistan xüsusi xidmət orqanları tərəfindən tərtib olunmuş terror planı nəticəsində Bakı metrosunda çoxlu sayda insan həyatını itirmişdi.

### İlk metro terrorunu da ermənilər Rusiyada törədib

Xatırladaq ki, metroda ilk dəfə terroru da ermənilər törədib. Belə ki, 1977-ci ilin yanvarında ilk dəfə Moskva metrosunun sərnişinlərinə qarşı terror hücumu həyata keçirilib. Həmin ilin yanvarın 8-də "İzmaylovskaya" və "Pervomayskaya" stansiyaları arasında partlayıcı qurğu işə salınıb. Nəticədə 7 insan həlak olub, 37 -i isə müxtəlif dərəcərələrdə xəsarət alıb. Bu hadisənin arxasında erməni terrorçuları çıxıb. SSRİ xüsusi xidmət orqanları "Ermənistan Milli Birlik Partiyası" adlı terrorçu təşkilatının üzvlərini, konkret olaraq Stepan Zaikyan, Akop Stepanyan və Zavet Baqdasaryanı həbs ediblər. Hər 3 terrorçu 1979-cu ildə məhkəmə hökmü ilə güllələnib.

Göründüyü kimi, erməni terrorunun izinə dünyanın bir çox ölkələrində rast gəlinir. Bu baxımdan, Trampa qarşı sui-qəsddə erməninin iştirakının olması ABŞ hüquq-mühafizə təşkilatları tərəfindən ciddi araşdırılmalıdır.

*N.BAYRAMLI*

# Vasitə məqsədi doğrultmayanda

## Fridrix Şillerin "Qaçaqlar" dramı haqqında

Klassik alman ədəbiyyatının iki zirvəsindən biri sayılan Şiller yaradıcılığa erkən başlamışdı. Qırx altı ildən də az çəkən ömründə onun qələmindən ondan çox dram əsəri, çoxlu şeir, məqalə, məktub çıxmışdı. Şillerin "Sevinc odası"na Bethovenin bəstələdiyi musiqi ("Qəhrəmanlıq simfoniyası" adıyla tanınan məşhur doqquzuncu simfoniyanın bir parçası) bu gün Avropa Birliyinin himnidir. Bu fakt Şiller yaradıcılığının həm Avropa xalqları, həm də bütövlükdə bəşəriyyət üçün nə dərəcədə əhəmiyyətli olduğunu göstərən əlamətlərdən yalnız biridir.

Hələ Ştutqart hərbi akademiyasının tibb fakültəsində oxuduğu vaxt gənc şair ömrünü ədəbiyyata, teatra həsr eləmək qərarına gəlmişdi. Ona böyük ad-san qazandıran "Qaçaqlar" əsərini də elə tələbəlik illərində yazmağa başlamışdı. Akademiyanı bitirəndən bir il sonra - 1781-ci ildə iyirmi iki yaşlı dramaturq ona çox da uzaq olmayan gələcəkdə dünya şöhrəti gətirəsi pyesi üzərində işini tamamladı. Tezliklə məlum oldu ki, yerli naşirlər mərd, xeyirxah qaçaqdan bəhs eləyən, dövrün reallıqlarına uyğun (həmin dövrdə üç yüzdən çox xırda dövlətin ərazilərinə dağılmış Almaniya torpaqları həqiqətən də feodal əsarətindən, aclıqdan, yoxsulluqdan qaçıb çöllərə düşən qaçaq-quldur dəstələriylə doluydu) əsəri işıq üzünə çıxarmağa hazır deyillər. Bu səbəbdən müəllif "Qaçaqlar"ı öz hesabına çap elətməyə məcbur oldu.

1782-ci ilin 13 yanvarında pyes Manheym şəhərində ilk dəfə səhnəyə çıxarıldı. İctimaiyyət tamaşanı böyük rəğbətlə, heyranlıqla qarşıladı, teatr aləmini isə bir Şekspirin gəldiyi sənət xiridarlarına əyan oldu. İndi, üstündən iki əsr yarımlıq bir zaman keçəndən sonra cəsarətlə deyə bilərik ki, Fridrix Şiller klassik Avropanın Şekspirdən sonra ən böyük, həm də ən məşhur dramaturqudur.

Dahilərin ömür yolu heç vaxt hamar olmayıb. "Qaçaqlar"ın tamaşasına baxmaqdan ötrü qulluq elədiyi hərbi hissədən özbaşına ayrılan gənc dramaturq əsgəri nizamnaməni pozduğuna görə on dörd gün zindanda yatmışdı. Zalım hersoqun əmriylə ona tibbi əsərlərdən başqa nəsə yazmaq qadağan olunmuşdu. Bundan sonra Şiller musiqiçi dostuyla birgə qonşu hersoqluğun ərazisinə qaçmışdı. Bu qaçış əslində onu zorla boynuna qoyulmuş məsləkdən uzaqlaşdıran, onu gerçək təyinatına doğru aparan bir ziyarət, özgələrdən özünə qaçış, eşikdən evə qayıdış idi.

***

"Qaçaqlar" dramı beş pərdədən ibarətdir. Hər pərdə də özlüyündə səhnələrə bölünür.

Birinci pərdə qraf fon Moorun qəsrində açılır. Qoca qraf kiçik oğlu Fransla böyük oğlu Karldan danışır. Leypsiqdən bir vəkilin göndərdiyi məktubda deyilir ki, tələbə Karl universitetin başını buraxıb avaraçılığa qurşanıb, qumarda böyük məbləğdə pul uduzub, bir bankir qızının namusuna toxunub, qızın nişanlısını öldürüb, sonra da dostlarıyla birgə harasa qaçmaqla ədalət məhkəməsindən yayınıb. Artıq onun başına pul qoyulub.

Ağır xəbər qoca atanın belini qırır. Frans təkidlə tələb eləyir ki, atası Karlı oğulluqdan çıxarsın. Dövrün qanunlarına görə, atanın bütün mülkü böyük oğluna çatır, qalan övladlarına mirasdan heç nə düşmür. Məhz bu səbəbdən Frans Karlı vərəsəlikdən məhrum etməyə, ata mülkünü yiyələnməyə çalışır. Di gəl, qoca qraf böyük oğluna çox bağlıdır, Karla sərt cəza verməyə ürəyi gəlmir. Bununla belə ona hədə dolu məktub yazmağa razılıq verir: əgər Karl doğru yola qayıtmasa, qraf ondan üz döndərəcək. Frans atasını inandırır ki, bu məzmunda məktub yazmaq ona çətin olacaq, əgər atası rüsxət versə, qardaşına məktubu Frans özü yazar. Qoca qraf gedəndən sonra kiçik qardaş "Leypsiqdən gələn" məktubu cırıb atır ki, xəttini tanıyan olmasın. Buradan məktubun saxta olduğu üzə çıxır.

Frans Moorun bu səhnədəki monoloqu onu çox dəqiq xarakterizə eləyir:

"Mənim təbiətdən narazı olmağa ixtiyarım var. Namusuma and olsun, mən bu ixtiyardan sona qədər istifadə eləyəcəyəm. Axı niyə ana bətnindən işıqlı dünyaya birinci mən çıxmadım? Axı niyə mən tək oğul olmadım? Niyə təbiət məni bunca eybəcər yaratdı? Elə bil mən təbiətin müflis vaxtına düşmüşəm. Bu lapland burnu, bu zənci dodaqları, bu qottentoq gözləri niyə elə mənə qismət olub? Elə bil təbiət bütün irqlərdən artıq qalmış iyrənc tikə-parçaları bir yerə yığıb qarışdırıb, məni belə xəmirdən yoğurub. Lənət, min lənət! Nə haqla yaramaz təbiət bütün nemətlərini ona verib, məni isə hər şeydən məhrum eləyib? İnsan hələ doğulmamışdan təbiətdə özünə rəğbət oyada bilərmi? Ya dünyaya gəlməmişdən təbiəti incitmək mümkündürmü? Yox, yox, mən öz şikayətimdə ədalətsizəm. Təbiət bizi miskin, çılpaq halda sonsuz həyat dənizinin sahilinə atanda bizə ağıl verib. Üzə bilən üzsün, kim acizsə, boğulsun! Həyat dənizinə atılandan mən təbiətdən bir kömək görməmişəm, nə qazancım olacaqsa, öz qolumun gücünə qazanacağam. Aza da, çoxa da hamının haqqı bərabərdir. Bu dünyada tələb tələblə, arzu arzuyla, qüdrət qüdrətlə toqquşub vuruşur. Haqq qələbə çalanındır, qanunsa bizdən ötrü qüvvələrimizin hüdudundan başqa bir şey deyil.

Doğrudur, dünyanın nəbzini işlətmək üçün insanların uydurduğu, guya hamının qəbul elədiyi anlayışlar var. Məsələn, təmiz ad. Bu, elə qiymətli bir sikkədir ki, yaxşı alver eləyənə böyük qazanc gətirə bilər. Vicdan dedikləri sərçələri gilənar ağacından qovmaq üçün bir uyuq, yaxud müflisləri bəladan qurtarmaq üçün ustalıqla düzəldilmiş vekseldən başqa bir şey deyil.

Söz yox, bunlar tərifə layiq məfhumlardır. Özü də ancaq axmaqları aldatmaq, qara təpik altında saxlamaq, ağıllıların isə əl-qolunu açmaq üçün lazımdır. Onlar mənə bizim kəndlinin öz bostanına çəkdiyi çəpəri xatırladır. Kəndli bostanı çəpərləyir ki, Allah eləməmiş, birdən içəri dovşan keçər. Bu yandan da ağa atını mahmızlaya-mahmızlaya düz əkinin ortasından ötüb keçir. Yazıq dovşan! Bu dünyada dovşan olmaq miskin taleyin yiyəsi olmaq deməkdir. Fəqət dünyada dovşan da lazımdır. Ağaya lazımdır..."

Çox uzaq olmayan gələcəkdə Balzakın iblisanə qəhrəmanları, insan talelərini ayaqlarının altına sərən amansız fövqəlinsanları da eynən belə danışacaqlar. Ardını dinləyək:

"Xülasə, bütün çəpərlərin üstündən cəsarətlə tullanmaq gərəkdir! Heç nədən qorxmayan adam - həmının qorxduğu adamdan az güclü deyil. İndi toqqalı şalvar geymək dəbdədir. İstədiyin vaxt toqqanı boşalda da bilərsən, bərkidə də. Biz vicdanı da dəbə görə təzə çeşidə tikdiririk ki, kefimiz istəyəndə onu daraldıb-genəldə biləK... Bu qan bağı, doğmalıq istəyi haqqında da mən o qədər yalan-palan eşitmişəm ki, onları namuslu axmaqlardan biri eşitsəydi, başı pozulardı. Deyirlər ki, bax bu, sənin qardaşındır. Yəni o da sən çıxan sobadan çıxıb, buna görə də sənin üçün müqəddəs olmalıdır. Bu müqayisəyə, bu mülahizəyə fikir verin. Bədənlərin qonşuluğundan, ruhların ahəngindən, bətnin birliyindən guya ümumi duyğular, eyni süddən guya eyni meyillər yaranırmış. Ya da deyirlər ki, bax bu, sənin atandır, səni bu dünyaya o gətirib. Sən onun belindən gəlmisən, buna görə də o sənin üçün müqəddəs olmalıdır. Bu da çox qəribə mülahizədir. Soruşuram, o məni nədən ötrü bu dünyaya gətirib? Bunu ki məni çox istədiyindən eləməyib, axı mən onda hələ yox idim. Məgər o məni əkib-becərməmişdənmi tanıyırdı? Ya məni indi olduğum kimi düzəltmək istəyirdi? Olmaya mənim necə olacağımı bildiyi üçün məhz məni yaratmaq istəyirmiş?.."

Üstündən bir əsr ötməmiş Dostoyevskinin qatilləri də öz müdhiş əməllərinə bəraət qazandırmaq üçün buna bənzər metafizik tutalğalardan yapışacaqlar. Göründüyü kimi, Frans Moorun arqumentləri İsa Məsihin buyruqlarına, xristianlığın ehkamlarına daban-dabana ziddir. O, tezliklə qanlı cinayət piramidasını göylərə qaldırmaq üçün özünə ideoloji bünövrə hazırlayır, inanmadığı Allahı, inandığı təbiəti ədalətsiz davranmaqda suçlayır, ondan payını, qismətini əsirgəmiş taleyini qarğıyır, yerə də, göyə də meydan oxuyur, hədə-qorxu, təpməcə gəlir. Bu fikirlərlə yaşayan kəs əlinə fürsət düşən kimi qanlı tirana, amansız müstəbidə çevrilməlidir.

***

İndi görək böyük qardaş nə düşünür.

Birinci pərdənin ikinci səhnəsi Saksoniya sərhədindəki bir meyxanada vaqe olur. Leypsiq universitetinin dərsdən yayınan tələbələri adətən bu məkana toplaşırlar. Karl Moor kitab oxuyur, sonra kitabı büküb sözə başlayır:

"Antik qəhrəmanlar haqqında Plutarxın yazdıqlarını oxuyanda mən bu istedadsız cızmaqaraçılar əsrinə nifrət eləyirəm... Prometeyin göylərdən gətirdiyi parlaq qığılcım sönüb. Onun əvəzinə indi plaun tozundan, teatrlarda işlənən bu oddan istifadə eləyirlər, halbuki bu yazıq odla bir çubuq belə yandırmaq mümkün deyil. Adamlar başını itirib, siçanlar Herkulesin çomağında qaçışan kimi onlar da o yan-bu yana qaçıb vurnuxur, bu pəhləvanın hansı toxumdan yarandığını, hansı şirəylə bəsləndiyini öyrənmək üçün baş sındırırlar. Axmaq fransız keşişi deyir ki, böyük İsgəndər aciz bir qorxaq imiş. Kəlməbaşı naşatır iyləyən vərəmli professor qüvvət, qüdrət haqqında mühazirə oxuyur. Uşaq-muşaq Hannibalın taktikasını tənqidə qalxır...

Döyüş meydanında tər tökən ərlər! İndi sizə gimnaziyalar məskən olub, tənbəl məktəblilər sizin ölməz əməllərinizi bir yük kimi çantalarında gəzdirirlər. Budur sizin mükafatınız! Nürnberq alverçiləri sizə qoğal büküb satırlar, bəxtiniz gətirəndə isə fransız dramaturqları sizi səhnəyə çıxarıb kukla kimi oynadırlar. Budur axıtdığınız qanların, aldığınız yaraların mükafatı!

Bu aciz xadimlər əsrini görüm lənətə gəlsin! O, keçmiş dövrlərin rəşadətini çeynəməkdən, qədim qəhrəmanları haqqında naqqallıq eləməkdən, tragediyalar quraşdırmaqdan başqa heç nəyə qadir deyil. Onun beli gücdən düşüb, toxumu kəsilib. İndiki adamları pivə mayasıyla mayalayırlar...



*F.Uğurlu*

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







Qeyri-adekvat qiymət tənzimləməsi...

# Taksi fəaliyyətində növbəti problem

**Taksi fəaliyyəti ilə bağlı xoşagəlməz hallar bitmək bilmir. Xüsusilə, son günlər ölkəmizdə fəaliyyət göstərən bir neçə taksi şirkətinin qiymət tənzimləmələri ilə bağlı narazılıqlar çoxalıb. Buna səbəb tariflərlə bağlı ziddiyyətin ortaya çıxmasıdır. Belə ki, sərnişinlər onların sistemində göstərilən gediş haqqı ilə sürücülərin sistemindəki qiymətlərin eyni olmadığını söyləyirlər. Qeyd edilir ki, müştəri sifariş verəndə qiymət 5 manat göstərirsə, taksiyə əyləşəndən sonra sürücü 7 manat yazdığını deyir. Yaxud da şirkət vətəndaşa endirim edirsə, bu, sürücünün sistemində görünmür. Son günlər belə hallar çoxalıb. Amma bunun nə ilə əlaqəli olduğu bəlli deyil. Vətəndaşlar belə halları taksi şirkətinin fırıldağı kimi qəbul edirlər. Sürücülər də etiraf edirlər ki, bəzi taksi şirkətləri belə problemlər yaşadır və nəticədə sürücü ilə müştəri "üz-göz olur". Ümumiyyətlə, taksilərdə gediş haqlarının qiyməti artsa da, keyfiyyətdə irəliləyiş yoxdur. Ötən aylar qısa məsafə üçün iki-üç manat tələb olunurdusa, indi eyni məsafəyə görə ikiqat ödəniş olunur. Lakin problemlər bununla bitmir, bəzən sürücülər kartla edilmiş sifarişləri ləğv edir, bəzən isə tətbiqdə yeni avtomobilin gələcəyi göstərilsə də, göndərilən maşın köhnə model olur.**

## Bu, qanun pozuntusudur!

Mövzunu "Yeni Azərbaycan"a şərh edən nəqliyyat üzrə ekspert Elməddin Muradlı bildirib ki, taksilərdə qiymətlərin tənzimlənməsi aşağı həddə bağlı olub. Yəni başlanğıc qiymət 2 manat 50 qəpik təyin edilib: "Ondan yuxarı həddi daşıyıcı şirkətlər, operatorlar özləri müəyyənləşdirir. Bunu müştəri sifariş verəndə aydın şəkildə görür. Ünvana gedib çatanda qiymət dəyişirsə, bu, artıq qanun pozuntusudur. Çünki ola bilsin şəxs ünvanı verir, getdiyi yerdən ələvə məsafə sürdürür, bu ayrı məsələdir. Sürücü onun qeydiyyatını aparırsa, qiymətdə artım ola bilər. Amma gediş haqqı vətəndaş və sürücüdə fərqli göstərilə bilməz. Bu yalnız sürücünün şifahi şəkildə dediyi formada ola bilər. Tutaq ki, gediş haqqı 5 manat yazıb, sürücü deyir ki, o bu məsafəyə 7 manata aparacaq. İki manat da əlavə alır. Təcrübədə belə hallar olub.

Ola bilsin ki, şirkət müştəriyə endirim edib, amma bu, sürücünün sistemində görünmür. Belə halda sürücü şirkətə xəbər verməlidir ki, nəzərə alıb düzəltsinlər".

## 20 min manatdan 40 min manata qədər cərimə

Sifariş yerinə köhnə maşının gətirilməsinə gəlincə, ekspert belə hallarla bağlı ciddi problemlərin olduğunu təsdiqləyib: "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi də sürücülərə müraciət edib ki, bu hallara son qoysunlar. Vətəndaşlara da müraciət olundu ki, belə halda "141" qaynar xəttinə məlumat versinlər. Bununla bağlı operatorları 20 min manatdan 40 min manata qədər cərimə gözləyir. Bu cərimələrin qarşısını almaq üçün "Bolt", "Uber" kimi şirkətlər kampaniyalara başlayıblar. Deyirlər ki, əgər sizə təzə maşın təyin olunubsa, lakin real olaraq köhnə maşın gəlirsə, o halda onlara məlumat verilsin. Bunu edən vətəndaşa hədiyyə vəd edirlər. Yəni növbəti gedişlərdə endirim və s. Şirkətlər bu kimi hallarda vətəndaşlardan kömək istəyir. Vətəndaşlar da bu məsələdə bir az fəal olmalıdırlar".

## Vətəndaşın müdaxiləsi vacibdir

E.Muradlı qeyd edib ki, sərnişinlər sosial şəbəkələrdə narazılıq etsələr də, rəsmi şəkildə şikayət etmək istəmirlər: "Deyirlər ki, kiminsə çörəyinə bais olmaq istəmirlər. Həm xidmətdən narazılıq edirlər, həm də şikayət etmək istəmirlər. Dövlət bunun hamısına nəzarət edə bilmir. Vətəndaşın müdaxiləsi vacibdir. Çünki sürücülər təzə maşınla qeydiyyatdan keçirlər, köhnə ilə xidmət edirlər. Belə sürücülər arxayındır ki, 5-10 manat qazanacaqlar. Amma məsələ üzə çıxanda onların avtomobilləri sistemdən silinir, özlərinin də kimlikləri barədə məlumat toplanılır ki, gələcəkdə taksi sürücüsü ola bilməsinlər".

## Vaxtı gələndə cəzalarını çəkəcəklər...

Ekspert kartla edilən taksi sifarişlərinin sürücülər tərəfindən ləğv edilməsindən də danışıb: "Bunu çox vaxt sübut etmək olmur. Sürücülər belə əsaslandırırlar ki, uzaqdadırlar və gəlib çata bilməyəcəklər. Yəni səbəb sırf kart olsa, vətəndaş şikayət etməlidir. Sürücülər bilir ki, qanunda boşluq yoxdur. Sadəcə olaraq, dövlət humanistlik göstərir və onların üzərinə getmir. Vaxt gələcək onlar hər bir xırda səhvə görə bunun cəzasını çəkəcəklər, az qalıb".

E.Muradlının sözlərinə görə, biznes sahəsi açıqdır və istənilən sahibkar taksi ilə bağlı sistemi qurub, bu işi görə bilər: "Amma yerli taksi şirkətləri mükəmməl sistem qura bilmirlər".

Qeyd edək ki, ölkəmizdə taksi şirkətlərinin fəaliyyətinə nəzarət edən qurum Azərbaycan Yerüstü Nəqliyyat Agentliyidir (AYNA). AYNA-nın mətbuat katibi Tural Orucov isə sözügedən məsələ ilə bağlı bildirdi ki, sərnişinlər bu kimi problemlər barədə taksi şirkətlərinə müraciət edərək operatorlardan müvafiq cavab ala bilərlər...

*Yeganə Bayramova*

# Yeni elmi kəşf: Bəzi ailələrdə niyə ancaq qız və ya oğlan uşaqları dünyaya gəlir?

Birləşmiş Ştatların Miçiqan Universitetinin alimləri bəzi ailələrdə niyə yalnız oğlan və ya qız uşaqlarının doğulması fenomeninin genetik əsasını kəşf ediblər. Məlum olub ki, RLF və KIF20B-nin müəyyən edilmiş genetik variantları nəslin cinsi nisbətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, bu irimiqyaslı tədqiqatın nəticələri nüfuzlu "Proceedings of the Royal Society B: Biological Sciences" elmi jurnalında dərc olunub.

Britaniya Bioloji bankının yarım milyon britaniyalının genetik məlumatlarını əhatə edən məlumatlarının geniş miqyaslı təhlili zamanı alimlər əhəmiyyətli RS144724107 mutasiyasını aşkar ediblər. Əhalinin 0,5 faizində rast gəlinən bu genetik dəyişiklik qız uşağına sahib olmaq şansını 10 faiz artırır. Maraqlıdır ki, bu mutasiya mayalanma proseslərində mühüm rol oynayan ADAMTS14 geninin yaxınlığında yerləşir.

Tədqiqat, həmçinin uşağın cinsinə potensial təsir göstərən RLF və KIF20B adlı iki əlavə gen müəyyən edib. Bununla belə, alimlər bu genlərin daha böyük bir nümunədə rolunu təsdiqləmək üçün əlavə tədqiqatlara ehtiyac olduğunu vurğulayırlar.



Kəşf populyasiyada cinsi tarazlığın qorunması mexanizmini izah edən məşhur Fişer prinsipinə uyğundur. Bu nəzəriyyəyə görə, bir cinsin say üstünlüyü olduqda, təbii seçim avtomatik olaraq əks cinsin nümayəndələrinin doğum nisbətinin artmasına kömək edir və bununla da tarazlığı bərpa edir.

*İdman*

## "Mingəçevir Reqatası-2024" beynəlxalq turnirinin açılış mərasimi keçirilib



Füzulinin işğaldan azad olunması günü ilə əlaqədar oktyabrın 17-də şəhərin Aşağı Köndələnçay su anbarında "Mingəçevir Reqatası-2024"ün rəsmi açılış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib. Daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov işğaldan azad olunmuş ərazilərdə bu cür idman tədbirlərinin təşkilinin tarixi hadisə olduğunu bildirib. O, işğal dövründə şəhərin yaxşı vəziyyətdə olmadığını, İkinci Qarabağ müharibəsindən sonra Füzulidə Prezident İlham Əliyevin göstərişi ilə abadlıq işləri görüldüyünü vurğulayıb. E.Hüseynov yarışın keçirildiyi Aşağı Köndələnçay su anbarının Ümummilli Lider Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində inşa edildiyini xatırladıb.

Gənclər və idman naziri Fərid Qayıbov isə reqatanın əhəmiyyətindən danışıb və idmançılara uğurlar arzulayıb.

Yarışda Azərbaycan, Estoniya, Gürcüstan, İtaliya, Macarıstan, Qazaxıstan, Litva, Moldova, Polşa, Türkiyə, Ukrayna və Özbəkistandan 100-dək idmançı mübarizə aparır.

Aşağı Köndələnçay su anbarında təşkil edilən yarışda kayak növündə Amil Ramazanov birinci yeri tutub.

Cavid Vəlizadə isə kanoe növündə bürünc medal əldə edib. Hər iki idmançı 200 metr məsafədə fərqlənib.

Turnirin birinci günündə Azərbaycan avarçəkənləri 2 qızıl, 3 gümüş və 4 bürünc medal qazanıblar.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyi, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) birgə təşkilatçılığı ilə təşkil edilən turnirə oktyabrın 18-də Mingəçevirdəki "Kür" Olimpiya Tədris-İdman Mərkəzində yekun vurulacaq.

## Füzulidə reqata iştirakçılarının rəsmi paradı olub

Füzulinin işğaldan azad olunması günü ilə əlaqədar oktyabrın 17-də "Mingəçevir Reqatası-2024" beynəlxalq turnirində iştirak edən komandaların rəsmi paradı olub.



AZƏRTAC xəbər verir ki, parada Azərbaycan, Estoniya, Gürcüstan, İtaliya, Macarıstan, Qazaxıstan, Litva, Moldova, Polşa, Türkiyə, Ukrayna və Özbəkistandan 100-dək idmançı qatılıb. Yarış iştirakçıları Füzulidə turnirin keçiriləcəyi əraziyə qədər yürüş ediblər.



Ötən gün Mingəçevirdə start götürən reqata bu gün Aşağı Köndələnçay su anbarında davam edəcək.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyi, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) birgə təşkilatçılığı ilə təşkil edilən turnirə oktyabrın 18-də Mingəçevirdəki "Kür" Olimpiya Tədris-İdman Mərkəzində yekun vurulacaq.

## Məşhur klub idman yarışlarından kənarlaşdırıla bilər

Portuqaliyanın "Benfika" klubu 3 il müddətinə bütün idman yarışlarından kənarlaşdırıla bilər.



AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, Lissabon təmsilçisi korrupsiya və vergidən yayınmada ittiham olunur.

İddia təsdiqini taparsa, məşhur klubu 6 aydan 3 ilədək diskvalifikasiya cəzası gözləyir.

Qeyd edək ki, "Benfika"da Türkiyə millisinin iki futbolçusu - Orkun Kökçü və Kərəm Aktürkoğlu çıxış edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**

**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4804**
**Sifariş: 2394**

"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli